# ELM

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 07 (1447) ❖ Cümə, 21 fevral 2025-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur


# BÖYÜK QAYIDIŞ SÜRƏTLƏ REALLAŞIR



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərinə səfər ediblər.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma "Hilton Garden İnn" hotelində görülən işlər barədə məlumat verib. Hotelin Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunduğunu, burada 100-dən çox işçinin fəaliyyət göstərməsinin nəzərdə tutulduğunu deyib.

Ağdam rayonunda ən müasir standartlara cavab verən hotellərin inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin inkişafına mühüm töhfə verəcəyi böyük gözləntidir. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.

Həmin gün Prezident İlham Əliyev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib. Bu Mərkəz ətraf ərazilərin elektrik təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunması məqsədilə inşa edilib.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb.

Prezident və xanımı Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə də tanış olublar.

Mərkəzdə görülən işlərlə bağlı bildirilib ki, ümumi sahəsi 1,4 hektar olan Mərkəzin birinci mərtəbəsində kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri təşkil etmək üçün hərtərəfli şərait var.

Bundan əlavə, Mərkəzin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər zamanı "Ağdam Residence" yaşayış kompleksində, Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində, 1 nömrəli körpələr evi-uşaq bağçasında, Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan işlərlə və Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar.

Layihə barədə məlumat verilib ki, Əsgəran qala-kompleksinin dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. Layihəyə əsasən, qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulub.

Ümumiyyətlə, torpaqlarımız işğal altında olduğu dövrdə Ermənistan tərəfindən dağıdılan, məhv edilən irsimiz, o cümlədən tarixi, dini abidələrimiz bu gün dövlətimiz tərəfindən təmir-bərpa edilir, yenidən qurulur. Xüsusilə qeyd etmək yerinə düşər ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu işlərə mühüm töhfə verir. Bu baxımdan, Əsgəran qala-kompleksinin bərpası, tarixən malik olduğu şöhrətinin özünə qaytarılması xalqımızın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin tanıdılmasına xidmət edir.

Növbət gün Prezidenti İlham Əliyev Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak edib, həmçinin Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.

Müəssisə barədə məlumat verilib ki, ərazisi 1,2 hektar olan fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib.

Dövlətimizin başçısı həmin gün Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib və parkın təməlini qoyub.

Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Xankəndi şəhərində yaradılacaq Zəfər parkı tarixi Qələbəmizin yaddaşlarda yaşadılması, yaradılmış qəhrəmanlıq nümunələrinin əbədiləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə də tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib. O, Böyük Qayıdış Proqramının icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını vurğulayıb. Qeyd edib ki, işğaldan azad edilən ərazilərdə bərpa işləri Azərbaycanın öz gücü hesabına həyata keçirilir. Xüsusilə Xocalının bərpası prioritet məsələlərdən biridir, çünki orada xalqımıza qarşı soyqırımı törədilib.

Prezident İlham Əliyev keçmiş köçkünlərin öz torpaqlarına böyük sevgi və həvəslə qayıtdığını, burada quruculuq işlərinə qoşulduğunu bildirib. Dövlətin əsas vəzifəsinin vətəndaşların təhlükəsiz və rahat həyatını təmin etmək olduğunu vurğulayaraq, Ballıca sakinlərini təbrik edib.

Sonda sakinlər yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Suveren Azərbaycanda Birinci vitse-prezidentlik - konstitusion ilk innovativ-siyasi-mədəni "güc" idarəetmə strategiyasıdır

**"Heydər Əliyev əlçatmaz, ideal və mənim həyatımda əsas müəllimdir".**

*Xanım Mehriban Əliyeva*

**XXI əsr suveren Azərbaycanın geosiyasi reallığına fərqli rakursdan diqqət yetirəndə dünya dövlətlərində qarşıdurmalar, çətinliklər, müharibələr, savaşlar, dağıntılar, miqrasiyalar, kataklizmlərlə müqayisədə ölkədə dinc daxili sabitlik, dövlət+xalq+ordu birliyi, birgəyaşayış həyat tərzi, həmrəylik nəzəri çəkir. Suveren Azərbaycanın Cənubi Qafqaz regionunda yaratdığı yeni reallıqlar zəminində ölkə modern inkişaf xəttinə yönəlik strateji yolu seçib. Azərbaycanda məhz daxili siyasi-ictimai və vətəndaş həmrəyliyi sabitlik amilini nizamlayır.**



Yeni reallıqlar fəlsəfəsində Azərbaycanın yeni inkişafının çoxtərəfli tərəqqisinin əsasını Prezident İlham Əliyev siyasi xətti ilə ölkənin imkan və potensialının qarşıya çıxan hədəf və çağırışları paralelində, respublikanın strateji hədəfləri müəyyən edilməsi prioritetləri zəruriləşdirir. XXI əsrin üçüncü onilliyində respublikanın inkişaf mənzərəsi Prezident İlham Əliyev siyasi iradəsindən və praqmatizmindən irəli gələn ”Güclü Azərbaycan” modeli paradiqması ilə yeni innovativ tərəqqini gerçəkləşdirən islahatlarla səciyyələnən reallıqlardır.

Konstitusiyaya, həmçinin 2020-ci il Vətən müharibəsinin Zəfərlə bitməsindən sonra postmüharibə dövrü ardıcıllıqla həyata keçirilən yenilənmələr də çoxşaxəlidir.

Cənubi Qafqaz bölgəsi ölkələrində yeni reallıqların meydana çıxması ilə maraq və tələblər də dəyişir, yenilənir. İnstitusional islahatlar ölkədə milli dövlət idarəetmə sisteminin zamanın dəyişən hədəf və tələblərinə adaptik qurulmasını zəruri edir. İslahatlar institusional qurumların, dövlət və hakimiyyət sisteminin dəyişən tələb və çağırışlarına uyğun mexanizmlərini şərtləndirir.

XXI əsr dünyanın dəyişən yeni nizamında dövlət, dövlətçilik institutunda, idarəetmə metod və formaları da oxşar və fərqlidir. Dövlət idarəetmə sistemi onun tərkib hissəsi olan icraedici, qanunverici və məhkəmə hakimiyyətlərindən ibarətdir. Bütün xalqlar xaos, özbaşınalıq, anarxiyanın öz ölkəsində qarşısını almaq üçün sabit idarəetmə sistemi və onun tərkib hissələrini təsis edirlər.

Demokratik quruluşlarda ölkə vətəndaşları və onu təmsil edənlər, hakimiyyət qarşılıqlı vətəndaş münasibətlərini tənzim edə bilirsə, bu demokratik sistemdir. Belə quruluşlarda da çox yayılan siyasi isarəetmə forması president və parlament respublikaları və onların tərkib hissələridir.

Dünyada dövlət idarəetməsində prezidentlik institutlarının fərqli modelləri olmasına baxmayaraq, bu təsisat dünyada siyasi qüvvələrin mübarizəsindən yuxarıda olan, konstitusiyaya riayət olunmasını, xalqın ehtiyac və maraqlarının təminatçısı və milli birliyin rəmzi kimi qəbul olunur. Dövlətlərin idarəçilik sistemində prezidentlik institutu idarəetmə formasından asılı olaraq siyasi, tarixi dövlətçilik yolunu, siyasi mədəniyyətini və s. ehtiva edərək bir sıra amil və hakimiyyət sistemində də müxtəlif yer, rol və xüsusiyyətləri əks edir.

Bu kontekstdən Azərbaycanda dövlət siyasi idarəetmə formasına nəzər yetirək.

- Prezidentlik institutu müstəqil Azərbaycanda dövlət hakimiyyəti sistemində əsas siyasi idarəetmə paradiqmasıdır. Zamanın tələblərinə uyğun Prezidentlik institutu özünün təşəkkülü və inkişafında yeniləşərək, Ali Qanuna - Konstitusiyaya dəyişikliklər və islahatlar nəticəsində daha da təkmil metoda keçib.

Azərbaycan Konstitusiyasının 7-ci maddəsinin 3-cü müddəasında dövlət hakimiyyətinin və hakimiyyətlərin bölünmə prinsipi əks edilmişdir.

2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən Referendumda dövlət siyasi-ictimai idarəçiliyində ilk və yeni institutun - Birinci vitse-prezidentlik təsisatının yaradıldı. Müstəqil Azərbaycanda Birinci vitse-prezidentlik institutunun formalaşdırılması dövlət siyasi idarəçiliyində funksional vahid olaraq ölkənin də idarəetmə sistemində yeni və aktuallıq kəsb edən göstəricisidir.

2016-cı il 26 sentyabr Referendumunda Konstitusiya dəyişiklikləri, eləcə də Birinci vitse-prezidentlik təsisatının yaradılması Prezident İlham Əliyev siyasi qətiyyətinin, yenilənmənin, islahatın, ölkə ictimaiyyətinin dəstəyi ilə həyata keçirilən mövqedir.

Suveren Azərbaycanda Prezidentlik institutuna aid islahatlardan ən əsası Azərbaycanda ilk dəfə Vitse-prezidentlik institutunun yaradılmasıdır. Vitse-prezidentlik institutunun formalaşması dövlət siyasi idarəetməsində yeni və mühüm prosesdir. Bu institut yeni islahatların getdiyi müasir dövrdə dövlətçilik sistemində siyasi-hüquqi idarəetmədə effektivliyin artırılması, ictimai-humanitar-mədəni vəzifələrin reallaşdırılmasında səmərəli inkişaf yoludur. Vitse-prezidentlik institutunun konstitusion əsaslarla təsis olunması Respublikada siyasi dövlət idarəetməsinin təkmilləşdirilməsi paradiqmasıdır.

2016-cı ildə Konstitusiyaya əlavə edilmiş 103-1-ci maddə ”Azərbaycan Respublikasının vitse-prezidentləri” adlanır və onun 1-ci bəndində yazılır ki: ”Azərbaycan Respublikasının vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və azad edilirlər”. Azərbaycan Konstitusiyasının 2-ci bəndində yazılıb: ”Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir”.

Güc, fəaliyyətdə enerjilik, işdə uğur kəmiyyəti, nüfuz, ədalətlilik, cəmiyyətdə idarəçiliyi tənzimləyən Liderlik keyfiyyətidir.

Birinci vitse-prezidentlik institutu:

- *XXİ əsr müstəqil Azərbaycanda 2016-cı il Referendumu ilə təsbit olunan Konstituson İnstitutdur;*
- *Müstəqil Azərbaycanda ilk dəfə təsis edilib;*
- *İlk növbədə humanizm qayəli milli təhlükəsizlik məsələsidir;*
- *Dövlət idarəetməsində səlahiyyətlilik statuslarının şaxələnmə prosesidir;*
- *İcraetmə ilə idarəetmənin vəhdətində xarakterik komponentdir;*
- *Türk-Şərq-İslam aləmində də optimal idarəçilik modelidir;*
- *Çevik, operativ qərarların daha da məsuliyyətliliyinin formalaşdırılmasıdır;*
- *Ölkədə hakimiyyət və idarəetmədə yeni layihə və islahatlara dəstəkdir;*
- *Humanitar, beynəlxalq, qlobal, lokal, yerli səviyyədə milli-mədəni yeniliyi əks etdirir -*

üslubunda, parlamentlə qarşılıqlı əlaqələrində və s. ehtiva olunur.

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə ölkədə ilk dəfə Birinci vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Arif qızı Əliyeva təyin edilib.

Öncüllük, birincilik Tanrı yazısı, İlahi qismətin seçilmişlərindən biri olma şansıdır. Və hər bir şəxsin gələcək həyat Yolunda daxili keyfiyyətlərindən qaynaqlanan Yaşam fəlsəfəsidir.

21 fevral 2017-ci il Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev Xanım Mehriban Əliyevanın müasir Azərbaycanın ictimai-mədəni, siyasi həyatında vacib və aktiv rol apardığını, Yeni Azərbaycan Partiyasında sədrin müavini, Milli Məclisin deputatı olaraq səmərəli və əhəmiyyətli işlər aparmasını, çoxistiqamətli beynəlxalq fəaliyyətini, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm Azərbaycan, həm də bölgənin ən böyük ictimai təşkilatı olmasını, ölkədəki bir çox qlobal tədbirlərin təşkilində aparıcı rol oynadığını, Azərbaycan dövlətinin ən ali mükafatı olan ”Heydər Əliyev” ordeni ilə təltif olunmasını qeyd edərək, bu çoxşaxəli fəaliyyəti Mehriban Əliyevanın Ali statuslu təyinatında mühüm rol daşımasını qeyd etmişdir. Birinci vitse-prezidentlik institutu ölkədə funksional dövlət idarəçiliyində çeviklik və effektliyin artırılmasında, Prezidentlik institutunun tərkib hissəsi kimi aktuallığı ilə mühüm təsisatdır.

Bu kontekstdə Azərbaycan Respublikası Konstitusiyasının 105-ci maddəsinin I, II, III bəndləri, 106-1 maddəsi, həmçinin 108-1 maddəsi və 110-1 maddəsi vitse-prezidentlik institutunun səlahiyyət və fəaliyyətlərini qanunla təsbit edir.

Dövlət siyasi idarəetməsində Birinci vitse-prezidentlik institutu da məhz ”Güclü Azərbaycanın” inkişafı aspektində effektivliyi əks etdirir. Belə ki, müasir Azərbaycanda dövlət institusional sahəsində siyasi-ictimai-mədəni idarəetmə sahəsində daha çevik və effektliliyin formalaşması, hüquqi dövlət zəminində demokratik dəyişimlərin qanuni əsaslarının da yenilənməsi islahatları mexanizminin aparılma ehtivasıdır. Azərbaycan dövlət idarəetmə sahəsində gerçəkləşdirilən islahatlar aparıcı ölkələrin təcrübəsinə istinadən modernləşmə xəttinə uyğun strateji hədəf seçilib.

Diqqətə yetirək ki, bu illər ərzində ölkədə Birinci vitseprezidentlik təsisatın çevik, formalaşmış funksional yeni bir təsisat olaraq çoxşaxəli fəaliyyət aparır. İlk Birinci vitse-prezident Xanım Mehriban Əliyevanın ölkədə çoxşaxəli fəaliyyəti, bacarığı, Ulu öndər Heydər Əliyev məktəbindən mənimsədiyi çoxillik idarəçilik təcrübəsi vacib rol daşıyır. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Xanım Mehriban Əliyevanın bu kimi keyfiyyətlərinə nəzər yetirərək vurğulayıb: ”Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır”.

Bu illərdə Azərbaycan xalqı Birinci vitse-prezidentin çoxistiqamətli fəaliyyətinə müsbət yanaşaraq, güvənc və inam yeri sandıqları, məhəbbətlə etimad bəslədikləri Xanım Mehriban Əliyevanın bu məsuliyyətli statusda da ölkə üçün yorulmaz ictimai-humanitar fəaliyyətini təqdir edərək, daim müxtəlif problemlərin həllində ona müraciət edirlər. Birinci vitse-prezident xalqın müxtəlif qruplarının məsələlərinin həllinə, valideyn qayğısından məhrum olan uşaqlara, xüsusi diqqət göstərməyə, çoxəsrlik mədəni irsimizin təbliğinə və s. sahədə çoxsaylı sosial-humanitar-mədəni yeni layihələrin reallaşdırılmasını həyata keçirir.

Suveren Azərbaycanda formalaşan yeni funksional qurumun həyata keçirtdiyi geniş spektrli işlər də məhz cəmiyyətdə Birinci vitse-prezidentlik təsisatına rəğbəti yüksəldib.

Suveren Azərbaycanda həyata keçirilən sosial siyasətin obyektində ölkə vətəndaşlarının maraq və mənafeləri dayanır. Ölkədə sosial siyasətin əsas komponentlərindən biri cəmiyyətin ən həssas qrupu, müəyyən ehtiyacı olan vətəndaşlar hər zaman dövlətin diqqətindədir. Birinci vitse-prezidentin söylədiyi kimi: ”Biz bu gün bərabər hüquqlardan bərabər imkanlar siyasətini gerçəkləşdiririk”.

Birinci vitse-prezident təyinatından sonra Xanım Mehriban Əliyevanın ilk tədbiri də qaçqın və məcburi köçkünlərin problemlərinin çözülməsi məsələsi idi.

Bu mətndən də Birinci vitse-prezidentin məhz yeni statusda ilk iclası 9 mart 2017-ci ildə Bakı və Sumqayıt şəhərində müvəqqəti yerləşən qaçqın və məcburi köçkün ailələri ilə keçirildi. Bu göstərir ki, dövlət siyasətinin vacib xətti olan sosial məsələsi yeni funksional qurum Birinci vitse-prezidentlik təsisatının da fəaliyyətində prioritet istiqamətdir.

XXI əsr Suveren Azərbaycanı bir sıra beynəlxalq miqyaslı tədbirlərə, ev sahibi olmuşdur. Nəzərə yetirək ki, bu kimi tədbirlər məhz Birinci vitse-prezidentin təşkilati rəhbərliyi ilə hazırlanmışdır. Belə ki, ”Evrovision-2012” musiqi yarışı, 2015-ci il Birinci Avropa Oyunları məhz bu silsilədəndir. Azərbaycanın ev sahibi olduğu bu tədbirlərin hər biri yüksək standartlar göstəricisində baş tutub. ”Evrovision-2012” musiqi yarışı vacib bir mədəni hadisə idi. Həmçinin birinci Avropa Oyunları hazırlıq mərhələsi də çox az vaxtda reallaşsada dünyada keçirilən Olimpiya Oyunları səviyyəsində həyata keçirildi.

Bu silsilədən 2017-ci il Azərbaycanın yenə ev sahibliyi ilə baş tutan IV İslam Həmrəyliyi Oyunları da Birinci vitse-prezidentin bacarıqlı təşkilatçılığı və qabiliyyətini bir daha əks etdirdi. 10 gün müddətində bu idman yarışı ölkədə əsl bayrama döndü. İslam oyunları yüksək səviyyədə keçirildi.

Dövlət Başçısı İlham Əliyev ”Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarında müxtəlif ölkələrdən olan qalib idmançıları, onların məşqçilərini, İslamiadanın Təşkilat Komitəsinin işini yüksək qiymətləndirərək vurğulamışdı: ”Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazırlıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın”.

Birinci Vitse-prezident fəaliyyətində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, maraq və mənafelərinə, istək və arzularına, humanistliyə əsaslanır. Bu xoşməramlı humanist fəaliyyət Türkiyə, Pakistan, İtaliya, Rusiya, Küveyt, Özbəkistan, Serbiya və s. ölkələrin ali mükafatları ilə təltif edilmişdir. Prezident İlham Əliyev Xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin beynəlxalq miqyasda yüksək qiymətləndərilməsi haqda söyləyib ki: ”Öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilib”.

Postmüharibə dövrü də Birinci vitse-prezidentlik qurumunun, Qarabağın işğaldan azad edilən ərazilərində həyata keçirilən dirçəliş, yenidənqurma, bərpaetmə istiqamətli çoxsaylı fəaliyyəti də təqdirə layiqdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçirilən COP29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bu konfransda ictimai-siyasi və sosio-humanitar paradiqmalı məzmunda ətraflı məruzə ilə çıxış etdi. Xanım Mehriban Əliyevanın məruzəsinin də əsas paradiqmaları ”ölkələrə sülh və əmin-amanlıq diləməklə” dünyaya BARIŞ çağırışı idi.

Yekunda nəzərə yetirək ki, Suveren Azərbaycanda Birinci vitse-prezidentlik Konstitusion ilk innovativ ictimai-siyasi - ”güc” İnstitutudur.

**Rəna MİRZƏZADƏ**
**AMEA Qadınlar Şurasının sədri,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor**

# AMEA-nın Ümumi yığıncağı keçirilib

**Dünən AMEA-nın Rəyasət Heyətinin binasında Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib.**



Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Elm və təhsil naziri Emin Əmrullayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Azərbaycan Elm Fondunun icraçı direktoru Mehriban İmanova, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev, Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Müzəffər Şəkər (onlayn), ÇXR Honq-Konq Kore Akademiyasının İdarə Heyətinin üzvü professor Li Lei (onlayn), AMEA-nın Rəyasət Heyətinin üzvləri, millət vəkilləri, Akademiyanın həqiqi və müxbir üzvləri, AMEA-nın və əhatə etdiyi elmi müəssisə və təşkilatların direktorları, ali təhsil müəssisələrinin rektorları, respublika üzrə 2024-cü il ərzində əldə edilmiş mühüm elmi nəticələrin müəllifləri iştirak ediblər.

Əvvəlcə 2024-cü ilin yekunlarına həsr edilmiş elmi nailiyyətlər sərgisinə baxış olub.

Umumi yığıncaqda AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Akademiyada təməl islahatlardan - İnkişaf Konsepsiyasına və Yol Xəritəsinə" mövzusunda məruzəsi dinlənilib.

Sonra Azərbaycan Respublikasının Elm və təhsil naziri Emin Əmrullayev və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxış ediblər.

Daha sonra AMEA-nın akademik-katibi akademik Arif Həşimovun "2024-cü Akademik İlin elmi hesabatı" və mövzusunda məruzəsi dinlənilib.

Tədbirdə İşçi qrupun rəhbəri, AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri "AMEA-nın İnkişaf Konsepsiyası və Yol Xəritəsi layihəsi" haqqında məlumat verib.

*Ümumi yığıncaq haqqında geniş məlumat qəzetimizin növbəti nömrəsində dərc olunacaqdır.*

# Azərbaycan-Türkiyə elmi əlaqələri genişlənir

## *Akademik İsa Həbibbəyli Süleyman Dəmirəl Universitetinin rektoru ilə görüşüb*

**Fevralın 13-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkiyənin Süleyman Dəmirəl Universitetinin rektoru professor Mehmet Saltan ilə görüşüb.**



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli tarixi köklərə söykənən Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətlərinin əvəzedilməz olduğunu, bu əlaqələrin daha da möhkəmlənməsi üçün bütün sahələrdə mühüm addımların atıldığını bildirib.

Azərbaycan-Türkiyə münasibətlərinin müasir dövrdəki təməllərinin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı üzərində qurulduğunu deyən akademik İsa Həbibbəyli ikitərəfli əlaqələrimizin möhkəmlənməsində qardaş ölkənin 9-cu Prezidenti Süleyman Dəmirəlin də mühüm tarixi xidmətləri olduğunu söyləyib. Qeyd edib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyevin və Süleyman Dəmirəlin dostluğu sayəsində Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində Ümid körpüsünün istifadəyə verilməsilə Naxçıvan Muxtar Respublikası blokada şəraitindən xilas olub, iqtisadi həyat yenidən canlanıb.

Ölkə rəhbərlərimizin dostluq ənənələrinin bu gün Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın timsalında davam etdirildiyini bildirən akademik İsa Həbibbəyli bu münasibətlərin digər sahələrdə olduğu kimi, elmdə də geniş meydanlar açdığını diqqətə çatdırıb. Qeyd edib ki, Milli Elmlər Akademiyası Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu, Türkiyə Elmlər Akademiyası (TÜBA), Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) kimi aparıcı qurumları, eləcə də 100-dən artıq universiteti ilə əməkdaşlıq edir.

Süleyman Dəmirəlin adını daşıyan universitetlə əməkdaşlığın Akademiya üçün şərəf olduğunu deyən akademik İsa Həbibbəyli görkəmli siyasətçinin 1995-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü seçildiyini də qonaqlara bildirib.

Akademik İsa Həbibbəyli AMEA-nın və Türkiyənin Burdur Mehmet Akif Ersoy Universitetinin birgə təşkilatçılığı ilə Məhməd Akif Ərsoya həsr olunmuş tədbirin keçirilməsinin nəzərdə tutulduğunu deyib və Süleyman Dəmirəl Universitetinin də təşkilatçılar sırasında yer almasına münasibətini bildirib.

Görüşdə həmçinin 2026-cı ildə Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsinin 100-cü ildönümü münasibətilə keçirilməsi nəzərdə tutulan tədbirlər barədə də danışılıb.

Daha sonra çıxış edən Süleyman Dəmirəl Universitetinin rektoru professor Mehmet Saltan Isparta şəhərində yerləşən ali təhsil ocağının tarixi və burada aparılan elmi tədqiqatlar barədə məlumat verib. Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq etməkdən məmnunluq duyacaqlarını bildirən Mehmet Saltan hazırda universitetdə 328 azərbaycanlı tələbənin təhsil aldığını və qurumun müəllimləri sırasında həmyerlilərimizin də olduğunu söyləyib. Qeyd edib ki, hazırda universitetdə 14 fakültə fəaliyyət göstərir və tarix, ədəbiyyat, arxeologiya, dilçilik və s. kimi 11 bölməni əhatə edən İnsan və Toplum Bilimləri fakültəsində həyata keçirilən tədqiqatlarla Akademiyanın geniş əməkdaşlıq imkanları mövcuddur.

Görüş çərçivəsində, o cümlədən mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub, həmçinin elmi nəşrlərin mübadiləsinin zəruriliyi bildirilib.

Görüşdə Süleyman Dəmirəl Universitetinin beynəlxalq əlaqələr üzrə koordinatoru dos., Dr. İbrahim Kubilay və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Monitorinq və linqvistika şöbəsinin müdiri filologiya elmləri doktoru Sevinc Əliyeva da iştirak ediblər.

# Asiya ölkələri ilə qarşılıqlı elmi əməkdaşlıq diqqət mərkəzindədir

## *Sinqapurlu alimlər AMEA-nın Rəyasət Heyətində*



**Fevralın 17-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Beynəlxalq İnformatika Olimpiadasının prezidenti, Sinqapur Milli Universitetinin professoru Tan Sun Teck və Sinqapur və Asiya Məktəbləri Riyaziyyat Olimpiadasının (SASMO) prezidenti Henry Ong ilə görüşüb.**

Qonaqları Akademiyada görməkdən məmnunluğunu bildirən akademik İsa Həbibbəyli AMEA-nın tarixində ilk dəfə olaraq Sinqapurdan olan alimlərlə görüşün keçirildiyini bildirib. Həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Asiya ölkələri ilə qarşılıqlı əlaqələrə xüsusi diqqət yetirdiklərini vurğulayan akademik İsa Həbibbəyli bu gün Azərbaycanın sözügedən regionda əməkdaşlıq etdiyi Çin, Pakistan kimi güclü tərəfdaş dövlətlər olduğunu diqqətə çatdırıb. Həmçinin Milli Elmlər Akademiyasının da Asiya dövlətlərinin akademik qurumları ilə elmi əlaqələr qurduğunu deyən akademik İsa Həbibbəyli AMEA-nın Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasına (AASSA) üzv qəbul edildiyini, Çinin və Pakistanın, eləcə də Mərkəzi Asiya dövlətlərinin elmi müəssisələri ilə sıx əməkdaşlıq münasibətləri olduğunu söyləyib.

Akademik İsa Həbibbəyli elm və təhsilin, texnologiyanın güclü inkişaf etdiyi Sinqapurun akademik qurumları ilə əməkdaşlıq əlaqələrinin qurulmasında Milli Elmlər Akademiyasının da maraqlı olduğunu vurğulayıb. Bildirib ki, Sinqapurun elm və texnologiya sahəsində təcrübəsinin öyrənilməsi və tətbiqi Azərbaycan elminin daha da inkişafına təkan verəcək.

Sonra çıxış edən Beynəlxalq İnformatika Olimpiadasının prezidenti, Sinqapur Milli Universitetinin professoru Tan Sun Teck və Sinqapur və Asiya Məktəbləri Riyaziyyat Olimpiadasının (SASMO) prezidenti Henry Ong təmsil etdikləri qurumlar barədə ətraflı məlumat verib, AMEA ilə əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər. Sinqapur Milli Universitetində humanitar və ictimai elmlər istiqamətində də tədqiqatların aparıldığı, birgə əməkdaşlıq imkanlarının mövcud olduğu diqqətə çatdırılıb. Həmçinin azərbaycanlı tələbələrin beynəlxalq olimpiadalarda yüksək nəticələr göstərdiyi qeyd olunub, ölkəmizdə elmə, təhsilə yüksək dəyər verildiyi vurğulanıb.

Çıxışlardan sonra AMEA prezidenti qonaqlara Azərbaycan tarixinə aid kitablar hədiyyə edib.

Sinqapurlu alimlər həmçinin AMEA-nın Rəyasət Heyətinin binası və aparatın "Elektron Akademiya" şöbəsində aparılan işlərlə tanış olublar.

Görüşdə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov və SASMO Azərbaycan və Türkiyə Olimpiada Mərkəzinin rəhbəri Ədalət Məmmədqasımov da iştirak edib.

# Azərbaycan Milli Elmlər Akademiyası

## *Akademik Akif Əlizadə: AMEA-nın fəaliyyəti nəticəsində Azərbaycanda çağdaş intellektual elita*



**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi ölkəmizin elmi inkişaf yolunun, əldə olunan nailiyyətlərin və gələcək perspektivlərin dəyərləndirilməsi üçün əlamətdar bir hadisədir. Bu yubiley Azərbaycan elminin keçdiyi çətin, lakin şərəfli yolun işığında fundamental və tətbiqi tədqiqatların ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələri yenidən qiymətləndirməyə imkan yaradır.**

**AMEA-nın təsis edildiyi dövrün tarixi konteksti, akademik elmin inkişaf mərhələləri və elmlə təhsilin inteqrasiyasına yönəlmiş islahatlar bu müsahibənin əsas müzakirə mövzularından biridir.**

**Ötən 80 il ərzində AMEA müxtəlif elmi sahələrdə dünya səviyyəli nailiyyətlər əldə edərək, fundamental tədqiqatların aparıcı mərkəzlərindən birinə çevrilib. Akademiyanın keçmişi və gələcəyi haqqında danışmaqla biz yalnız elmi fəaliyyətin əsas istiqamətlərini deyil, həm də bu uğurların arxasında dayanan görkəmli alimlərin əməyini vurğulayırıq.**

**Akademik Akif Əlizadə ilə bu müsahibədə AMEA-nın 80 ildə keçdiyi inkişaf yolu, həyata keçirilən mühüm elmi-tədqiqat layihələri və akademik elmin gələcək perspektivləri ətrafında müzakirələr aparılıb. Elmi irsimizin qorunması və yenilənməsi, beynəlxalq əməkdaşlıqların genişləndirilməsi, elmin innovasiya potensialının gücləndirilməsi kimi mövzulara toxunularaq, AMEA-nın Azərbaycanın intellektual inkişafında oynadığı əhəmiyyətli rol təhlil edilib.**

**- AMEA-nın 80 illik yubileyinə dair düşüncələriniz... Bu yubiley Azərbaycan elminin keçdiyi yola necə işıq tutur?**

- İlk növbədə Elm məbədi - Elmlər Akademiyasının bütün alimlərini, elmi-texniki heyətini şanlı tarixi günlə - Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illik yubileyi münasibətilə böyük ruh yüksəkliyi ilə səmimi qəlbdən təbrik edirəm.

Tarixdən hamımızın yaxşı yadındadır ki, Azərbaycan Elmlər Akademiyası ölkənin son dərəcə ağır, hələ amansız müharibənin qurtarmadığı, faşizmlə gedən qanlı döyüşlərin yaralarının hələ sağalmadığı, ölkənin iqtisadiyyatının çətinliklə dirçəldiyi vaxtlarda yaradılıb. Lakin buna baxmayaraq 1945-ci ilin martında Azərbaycan Elmlər Akademiyasının təsis olunması xəbərini ölkəmiz böyük nikbinliklə qarşıladı. Mahiyyətcə bu, elmi gələcəyə yönəlmiş möhtəşəm bir addım idi.

Azərbaycanın qədim və zəngin hadisələrlə dolu tarixində bir çox əlamətdar dönüş anları və uğurlar vardır. Bu xüsusi mərhələlərdən biri son yüz ildə respublikamızın keçdiyi tarixi yolda Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasıdır. Qısa desək, sürətlə inkişaf edən ölkəmiz, çoxsaylı tarixi dövrlərində elə bir bənzərsiz təkan aldı ki, onsuz elmi tərəqqi strategiyasının həyata keçirilməsi qeyri-mümkün olardı.

Bu gün Azərbaycan elminin istər sovet dövründə, istərsə də müstəqilliyin əldə edilməsindən sonrakı illərdə qazandığı böyük uğurların əyani sübutu ölkənin çiçəklənməsi və iqtisadi nailiyyətlərin dinamikasıdır. Xüsusilə fundamental tədqiqatlar bütün dövrlərdə respublikanın elmi qüdrətinin əsas bazasında yeni texnologiyaların yaradıldığı başlıca bilik istehsalçısı olaraq qalıb. Eyni zamanda, bu illər ərzində Azərbaycan iqtisadiyyatı ölkə rəhbərliyinin fəal siyasəti, gərgin fəaliyyəti sayəsində elmi-texniki inkişafa qədəm qoyaraq, texnoloji mərhələyə daxil olub. Bunun həyata keçirilməsi üçün isə fundamental tədqiqatlar, cihaz və avadanlıqlar parkının və maddi vəsaitlərin çox kəskin surətdə yenilənməsi zəruridir.

Bundan əlavə, 80 illiyi ərəfəsində Elmlər Akademiyası sanki iki hissəyə bölünmüş oldu. Akademiya institutlarının mühüm bir hissəsi ölkə rəhbərliyinin qərarı ilə hüquqi cəhətdən Akademiya sistemindən Elm və Təhsil Nazirliyi sisteminə keçirildi. Mahiyyətcə, akademik elmin islahatı məsələsində ilk düzgün addım atıldı. Əlbəttə, bu, Azərbaycanın elm və təhsilinin tammiqyaslı inteqrasiyasının, elmi-tədqiqat fəaliyyətinin tədrislə qovuşmasının başlanğıc mərhələsidir. Aydındır ki, bu yöndə iş sivil ölkələrin elmin inkişafında keçdiyi yola bənzər olacaq, çünki elm və təhsilin inteqrasiyası elmi-tədris mərkəzlərində cəmləşmə ilə davam etdirilməlidir. Əlbəttə, islahatlar tədricən, aparıcı alimləri ali məktəblərdə tədrisə cəlb etməklə aparılmalı və uzun müddətdir ki, Azərbaycanda təcrübədən keçirilən, akademik institutlarda kafedraların filiallarının yaradılması ilə davam etməlidir. Sonra isə ayrı-ayrı ali məktəblər və ya onların fakültələri təbii şəkildə akademik qurumlarla inteqrasiya edilməlidir.

**- Azərbaycan Milli Elmlər Akademiyasının bu illər ərzində ən mühüm nailiyyətlərini necə dəyərləndirirsiniz? Sizcə, hansı sahələrdə daha böyük irəliləyiş əldə olunub?**

- Azərbaycan Elmlər Akademiyasının ilk iyirmi illik dövründə əsas elmi istiqamətlər - yarımkeçiricilər fizikası, hesablama riyaziyyatı və hesablama texnikası, kimya texnologiyalarının elmi əsaslarının işlənib hazırlanması, neftayırma və neft kimyası, geologiya, neft və qaz yataqlarının işlənməsinin nəzəriyyəsi və praktikası, qazma, neft sənayesi mexanikası və digər sahələri əhatə edirdi. Təsadüfi deyil ki, Xəzərin dəniz şelfinin mənimsənilməsi üzrə Azərbaycan geoloqlarının və rəşadətli təcrübəçi-neftçilərin dövlət layihəsinin yerinə yetirilməsində heyrətamiz dərəcədə cəsarətli, elmi əsaslandırılmış və riskli işlərinin həyata keçirilməsi məhz müharibədən sonrakı illərdə baş verdi. Azərbaycan Elmlər Akademiyasının yaradılması neft geologiyası və neftçıxarmanın elmi bazasını müəyyən etdi.

Sonra kənd təsərrüfatı - bitkilərinin və maldarlığın məhsuldarlığının yüksəldilməsinin bioloji əsasları, insan və heyvan fiziologiyası, biokimya, radiobiologiya, torpaqşünaslıq, aqrokimya, genetika və seleksiya sahəsində tədqiqatlar başlandı.

Daha sonra tarix, şərqşünaslıq, iqtisadiyyat, Azərbaycan dili və ədəbiyyatı. Müasir Azərbaycan dili, Azərbaycan xalqının ictimai-fəlsəfi fikir tarixi, Azərbaycan yazılı abidələri, Şərq xalqları əlyazmalarının Yaxın Şərq ölkələrinin iqtisadiyyatı və mədəniyyətinin öyrənilməsi istiqamətlərində tədqiqatlar vüsət aldı. Bu tarixi mərhələ Vətən elminin salnaməsinə fizik H.Abdullayevin, riyaziyyatçılar - Z.Xəlilovun, A. Hüseynovun, energetik Ç.Cuvarlının, astronom H.Sultanovun, kimyaçılar - M.Nağıyevin, V.Əliyevin, İ.Orucovanın, Ə.Quliyevin, tarixçilər - Z.Bünyadovun, P.Əzizbəyovanın, İ.Hüseynovun, geoloqlar - M.M.Əliyevin, Ş.Mehdiyevin, A.Yaqubovun, coğrafiyaçılar - Q.Gülün, E.Şıxlinskinin, neft sənayesi mexanikası və qazma sahəsində böyük mütəxəssislər olan M.Abbasovun, A.Mirzəcanzadənin, S.Quliyevin, hesablama texnikası sahəsində İ.Ə.İbrahimovun, fəlsəfi fikir tarixində F.Köçərlinin, təbabətdə D.Hüseynov və C.Abdullayevin, torpaqşünaslar - H.Əliyevin, V.Volobuyevin, genetiklər - C.Əliyevin və D.Hacıyevin, filoloqlar M.Dadaşzadənin, H.Araslının və bir çox alimlərin adları ilə daxil oldu.

Məhz bu görkəmli alimlərin sayəsində Azərbaycan Elmlər Akademiyası irəliyə addımlayıb, elmi fikrin ocağı olaraq, elmi ideya və fəaliyyətin mərkəzinə çevrilib.

**- Sizin fikrinizcə, AMEA-nın tarixində hansı hadisələr və şəxsiyyətlər xüsusi qeyd edilməlidir? Onların elmə təsiri barədə nə deyə bilərsiniz?**

- Azərbaycan alimləri respublikanın elmi ictimaiyyətinin tarixində həmişə hörmətlə xatırlanıb, Azərbaycan Elmlər Akademiyasının təsisçilərinə, şübhəsiz uğurlu və əvəzolunmaz fəaliyyətlərinə görə böyük qiymət verilib. Bu 80 illik şanlı yubiley Elmlər Akademiyasının möhtəşəm parlaq üfüqüdür. Biz - ziyalılar, onillər öncə olduğu kimi, bu gün də adları hörmətlə çəkilən görkəmli zəka sahibləri ilə birlikdə yaşamaq və çalışmaq imkanına görə taleyimizə sonsuz minnətdarıq. Azərbaycan elminin təntənəsi - onun yaranmasının 80 illik yubileyində milli mənəviyyatımızın beşiyi başında duran alimlərin əziz xatirəsi önündə baş əymək və onların layiqli işlərini bir daha yada salmaq mənəvi borcumuz və zamanın tələbidir.

Düşünürəm ki, elm məbədimizin əzəmətli sütunları sırasında Azərbaycan tibb təhsilinin və elminin əsasını qoyan görkəmli təbiblər - Mir Əsədulla Mirqasımov və Mustafa Topçubaşov, Sovet kimyaçılar məktəbinin tanınmış nüfuzlu nümayəndəsi - Yusif Məmmədəliyev, Azərbaycanda geologiya elminin baniləri - Şamil Əzizbəyov, Əli-Əşrəf Əlizadə, Mirəli Qaşqay, ədəbiyyatımızın zirvələri - Səməd Vurğun, Mirzə İbrahimov, fəlsəfi fikrinin görkəmli nümayəndəsi Heydər Hüseynov; Azərbaycan milli memarlığının davamçıları - Sadıq Dadaşov, Mikayıl Useynov və başqa dühə sahibləri çoxdan bizim tariximizin ayrılmaz hissəsinə çevrilib.

Bu şəxsiyyətlər bizim, eləcə də respublika alimlərinin bir neçə əvvəlki nəsli üçün Milli Akademiyanın tarixində ilk dəfə parlamış Azərbaycan elm kəhkəşanının sarsılmaz bünövrəsini qoyan böyük layihənin ilk qaranquşları deyil, həm də bu 80 il ərzində çiyinlərində elm məbədinin dayandığı və inkişaf etdiyi mifik atlantlardır. Onlar bu gün də həqiqi alimliyin və ziyalılığın, özəl keyfiyyətli dərin savadın və əxlaqın bariz etalonu kimi qəbul edilirlər. Onların adları bu gün də alimlik anlayışının özünə, Azərbaycan cəmiyyətində dünya görüşünün elmi cəhətdən formalaşmasına öz müsbət təsirini göstərməkdədir.

Obyektivlik və ədalət naminə demək lazımdır ki, müxtəlif dövrlərdə Azərbaycanda elmi fikir, məfkurə, elmi axtarışlar Sovet dövründə alimlərin sıx qarşılıqlı əlaqələri sayəsində daha da inkişaf edib.

Lakin XX yüzilin təlatümlü 90-cı illərində respublikanın bütün fəaliyyət dairələrində - siyasətdə, mədəniyyətdə, təhsildə və elmdə gərgin vəziyyət yarandı. Elm, o cümlədən akademik elm gözlənilmədən bir sıra çətinliklərlə üzləşdi: maliyyələşmənin kəskin sürətlə azalması, gənc istedadlı tədqiqatçıların kütləvi şəkildə elmdən getməsi, təşəbbüskar savadlı kadrların biznes sahəsinə keçməsi, Rusiya və başqa xarici ölkələrin elmi təşkilatları və alimləri ilə əlaqələrin kəsilməsi müşahidə olundu. Bütövlükdə Azərbaycan elmində dərin böhran yarandı.

Elmlər Akademiyasının keçən ilk onillikləri ilə müqayisədə elmin əhəmiyyəti və ölkənin həyatındakı rolu kəskin şəkildə aşağı düşdü. Yenidənqurma mərhələsində liberal və demokratik baxış və dəyərlərin başlıca daşıyıcısı və fəal sosial güc olan elmi ziyalılıq, hər şeydən üstün hesab edilən maddi dəyərlər cəmiyyətində, demək olar ki, kobud şəkildə həyatın kənarına atıldı.

Xüsusilə vurğulamaq yerinə düşər ki, həm o illər, həm də sonrakı dönəmdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyasına göstərdiyi böyük diqqət və qayğı - mühüm elmi problemlərin həllindən tutmuş görkəmli elm xadimlərinin irəli çəkilməsinə, akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsinə, elmi işçilərin maddi rifah halının yüksəldilməsinə qədər ölkənin elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. O dövrün kadr siyasəti elmi tədqiqat istiqamətlərini genişləndirməyə, yüksəkixtisaslı gənc mütəxəssislər ordusunu hazırlamağa imkan verirdi.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi bu kurs təkcə xüsusi biliklərə, vərdişlərə, təcrübəyə sahib olmağı deyil, həm də zəruri şərt kimi şəxsiyyətin özünükamilləşdirmə və vətəndaş məsuliyyəti tələblərinə cavab vermək qabiliyyətinə yiyələnməyi nəzərdə tuturdu. Bu mənada yeni ideya-siyasi təyinatdan - milli strategiyanın ən mühüm komponenti olan azərbaycançılıq siyasətini qeyd etmək olar.

**- Sizin AMEA prezidenti olaraq fəaliyyət dövrünüzdə qarşılaşdığınız çətinliklər və ən yaddaqalan nailiyyətlər hansılar idi?**

- Həmin illərdə sosial-siyasi və iqtisadi şərait, eləcə də müxtəlif problemlərin meydana gəlməsi akademiyanın təşkilati strukturunda ciddi islahatlar aparmağı tələb edirdi. Respublika rəhbərliyinin Elmlər Akademiyasına Azərbaycanın milli sərvəti kimi qayğıkeş münasibəti onun fəaliyyətinin təkmilləşməsi və optimallaşmasının toxunulmaz şərti olaraq qalmışdı. Bu mənada Elmlər Akademiyasının 70 illik yubileyinin keçirilməsi müstəsna əhəmiyyət kəsb etdi. 9 noyabr 2015-ci ildə keçirilən bu yubileydə ölkə Prezidenti İlham Əliyev böyük proqram nitqi ilə çıxış etdi. O, elmimizin inkişaf prioritetlərini dəqiq səciyyələndirdi, elmi istiqamətlərin geniş spektri üzrə tədqiqatların mühümlüyünü dərindən açıb göstərdi. Əvvəllər olduğu kimi, fundamental tədqiqatlar yenə də ölkənin elmi potensialının əsasını təşkil edirdi və onun bazası üzərində yaradılmalı olan yeni texnologiyaların başlıca bilik mənbəyi hesab olunurdu.

Qeyd edim ki, 2010-2020-ci illərdə fundamental elmin inkişafında dayanıqlı trend formalaşdırmaq mümkün oldu ki, bu da öz əksini obyektiv elmmetrik göstəricilər üzrə, yeni istinad indeksi, Hirş indeksi, yüksəkistinadlı əsərlərin siyahısı kimi müstəqil beynəlxalq reytinqlərdə tapırdı. Akademiyada yeni elmi tədqiqat institutları açılır, Azərbaycanda fundamental elmin inkişafının prioritet istiqamətləri - biologiya, riyaziyyat, fizika, biofizika, iqtisadiyyat - müəyyən edilir, tədqiqatların elmi proqramlarında əhəmiyyətli kompleksləşmə həyata keçirilirdi. Azərbaycan elmi dünya elm sisteminə qoşulmağa başladı ki, bu da xüsusi əhəmiyyət kəsb edirdi.

Təbii ki, tətbiqi tədqiqatların səmərəliliyi də əhəmiyyətli dərəcədə artdı. Elmlər Akademiyasında innovasiya fəaliyyətinin dayanıqlı yaxşılaşdırılması prosesinin zəruri ilkin şərtlərinin yaradılması mümkün oldu. Bu isə, öz növbəsində, akademik texnoparkın qurulmasında və onun vasitəsilə müdafiə və istehsalat məqsədli robotlaşdırılmış komplekslərin, kompüter stendlərinin, filiz və qeyri-filiz xammalının emalı sahəsində yeni texnologiyaların inkişaf etdirilməsində özünü göstərdi. Eyni zamanda, Akademiyanın kimyaçılarının tədqiqatları sayəsində yağların və yanacağın keyfiyyətinin əhəmiyyətli şəkildə artırılması, habelə naftalan nefti əsasında aromatlaşdırılmış vasitələrin hazırlanması sahəsində böyük uğurlar əldə edildi.

Bundan başqa, Akademiyada tədris prosesinin bütün mərhələlərində elmi-təhsil komplekslərinin təşkilinə dair mühüm addımlar atıldı. Bu addımlar təhsil və elmi fəaliyyətin qarşılıqlı əlaqəsini gücləndirərək, tədrisin keyfiyyətini və innovasiya potensialını daha da artırmağa yönəlmiş idi.

İri fundamental elmi proqramlarda müasir multidissiplinar yanaşmaların tətbiqi həyata keçirildi. İlk dəfə olaraq akademiyada magistratura pilləsi yaradıldı və "Akademik Elmi-Tədqiqat Universiteti"nin təşkili üçün layihə hazırlandı. Eyni zamanda, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı sayəsində, alimlərimizin Avropa təhsil sferasına inteqrasiyası əhəmiyyətli dərəcədə gücləndirildi.

Xarici həmkarlarla aparılan aktual elmi tədqiqatlarda ən yeni texnologiyalardan istifadə imkanları artdı. Nəticə etibarilə, Elmlər Akademiyasının beynəlxalq kooperasiyası gücləndi və onun beynəlxalq meqalayihələrdə - CERN (Nüvə tədqiqatları üzrə Avropa təşkilatı), Massaçuset Texnologiya İnstitutu, Dubnada nüvə fizikası sahəsində tədqiqatlar üzrə Rusiyanın elmi müəssisələrdə və digər beynəlxalq elmi mərkəzlərdə iştirakına təminat verildi. Həmçinin, beynəlxalq elmi tədqiqat laboratoriyaları yaradıldı və akademiya Avropa İttifaqının birgə elmi proqramlarında (Horizon - 2020) daha fəal şəkildə iştirak etməyə başladı.

Rusiya, Belarus, Ukrayna, Türkiyə, Fransa, İtaliya, Çexiya, Bolqarıstan və digər ölkələrlə birgə elmi layihələrin həyata keçirilməsi təmin edildi.

Sosial sahədə də əhəmiyyətli irəliləyişlər əldə olundu. Belə ki, Akademiyanın əməkdaşları üçün daxili məişət şəraiti təmin edən elmi şəhərcik inşa edilməyə başlandı. Eyni zamanda, akademiya əməkdaşları üçün Böyük Qafqazın dağətəyi zonasında fərdi torpaq sahələri ayrıldı.

**- Akif müəllim, Azərbaycan elminin gələcəyi hansı istiqamətlərdə inkişaf edə bilər?**

- Bu gün bütün dünyada olduğu kimi, ölkəmiz də yeni texnoloji inkişaf və intellektual irəliləyişə əsaslanan biliklər cəmiyyətinə doğru addımlayır. Yeni minilliyin başlanğıcında dünya artıq elmi və texnoloji inqilabın yeni dövrünə - yüksək elmtutumlu texnologiyalar dövrünə qədəm qoyub. Bu dövrün əsas tərkib hissələrini biotex-

# bu gün yeniləşmə və islahatlar dövrünü yaşayır

## yaradılıb, milli dövlətçilik ideologiyasının və azərbaycançılıq amalının elmi əsasları formalaşdırılıb

nologiya və gen mühəndisliyi, intellektual informasiya şəbəkələri, yüksək keçiricilər, ekoloji cəhətdən təmiz enerji mənbələri, nanotexnologiyalar, fotonika və istilik-nüvə energetikası təşkil edəcək.

Bu innovasiyaların arxasında artıq insan intellektinin gerçək uğurları ilə fantastika arasındakı sərhədləri növbəti dəfə pozacaq elmi kəşflər görünməkdədir. Başqa sözlə, bəzi cəsarətli alimlərin iddia etdiyi kimi, bu istiqamətdə işlənən tədqiqatlar süni intellektin yaradılmasına səbəb olacaq. Bu dövr, gələcəkdə iqtisadi və sosial nəticələr baxımından dünya sənaye inqilabına bənzər xarakter daşıyacaq, elm, sənaye, mədəniyyət və sosial sahələrdə əhəmiyyətli sıçrayışlar müşahidə olunacaq.

Beləliklə, söhbət Azərbaycanda təhsilin və elmin yeni sisteminin ardıcıl və dəyişməz inkişaf istiqamətlərindən gedə bilər. Bu isə, müasir multidissiplinar elmi yanaşmalar olmadan demək olar ki, mümkünsüzdür. Azərbaycandakı ali təhsil ocaqlarında və Milli Elmlər Akademiyasında bu gün fənlərarası tədris və elmi araşdırma proqramlarının daha da genişləndirilməsi zəruridir. Eyni zamanda, intellektual idarəetmə sistemi, informasiya təhlükəsizliyi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və alimlərimizin Avropa elm və təhsil sahəsinə inteqrasiyası ilə bağlı tədqiqatlara xüsusi diqqət yetirmək vacibdir.

**- Geoloq olaraq təbiət elmlərinə töhfələriniz böyükdür. Sizcə, AMEA-nın strukturunda humanitar və ictimai elmlər üzrə fəaliyyət göstərən institutlar ölkənin sosial və mədəni problemlərinin həllində daha təsirli olmaq üçün nə etməlidirlər?**

- Ötən dövr ərzində humanitar və ictimai elmlərin inkişafı görkəmli Azərbaycan alimləri Üzeyir Hacıbəyli, Səməd Vurğun, Mirzə İbrahimovun rəhbərliyi altında aparılan tədqiqatlar sayəsində mümkün olub. Dünya musiqi xəzinəsinə və Azərbaycan xalq musiqisinin elmi əsaslarının işlənilib hazırlanmasına Üzeyir Hacıbəyli böyük töhfələr verib. Ü.Hacıbəyli elmi ənənələri təkrarolunmaz şərq musiqisini ümümbəşəri sivilizasiyaya bəxş etmiş Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov kimi böyük bəstəkarlarımızın yaradıcılığında davam etdirilib. Görkəmli söz ustası Səməd Vəkilov Azərbaycanın ilk Xalq şairi olmaqla yanaşı, həm də böyük ədəbiyyatşünas alim olub. Mirzə İbrahimovun və filologiya elmi məktəbinin digər parlaq nümayəndələrinin - Məmməd Arif Dadaşzadə, Məmmədcəfər Cəfərov, Həmid Araslı, Kamal Talıbzadə, Feyzulla Qasımzadə, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Əziz Mirəhmədov, Yaşar Qarayev, İsa Həbibbəyli, Nərgiz Paşayeva, Kamal Abdullayev, Teymur Kərimli və başqalarının fundamental tədqiqatları geniş şöhrət qazanıb.

Dilçilik elminin inkişafında böyük xidmətləri olan Məmmədağa Şirəliyev, Əliheydər Orucov, Əbdüləzəl Dəmirçizadə Azərbaycan elmində akademik məktəblərin yaradıcıları olub. Bu sanballı elmi məktəblərin nümayəndələri -Ağamusa Axundov, Tofiq Hacıyev bu gün Azərbaycan dilçilik elmində özlərinə məxsus elmi məktəblər formalaşdırıb. Tarixşünaslıq, fəlsəfə və şərqşünaslıq sahəsində Heydər Hüseynovun elmi ənənələrini Aleksandr Makovelski, Ziya Bünyadov, Əlisöhbət Sumbatzadə, İqrar Əliyev, Əbdülkərim Əlizadə, Fuad Qasımzadə, Əlövsət Quliyev, Nailə Vəlixanlı, Aslan Aslanov davam və inkişaf etdiriblər.

Vətənimizə böyük memarlıq abidələri bəxş etmiş görkəmli memar-alimlər - Sadıq Dadaşov və Mikayıl Useynov Azərbaycanda akademik sənətşünaslıq elmi məktəbinin əsasını qoyub, bir sıra fundamental elmi-nəzəri əsərlər yaradıblar ki, bu gün də Azərbaycan sənətşünasları həmin ideyalardan faydalanırlar.

Ömər Eldarov - bədii irsimizin qızıl fonduna daxil edilmiş onlarla sənət əsərlərinin müəllifidir.

Zamanla Akademiya elmin inkişafı və əlaqələndirilməsi üzrə həqiqi elm mərkəzinə çevrilib. Elmlər Akademiyasının tarixində bu dövr təkcə maddi-texniki bazanın gücləndirilməsi, kadrların seçilməsi kimi gərgin təşkilatçılıq məsələlərinin həlli ilə deyil, həm də fundamental təbiət və ictimai elmlərin genişlənməsi və dərinləşməsi, elmi mühitdə yeni orijinal elm sahələrinin yaranması və inkişafı ilə də səciyyələnir.

Dövlətimizin Prezidenti İlham Əliyevin tövsiyələri bizi kadr məsələlərinə məhz bu cür yanaşmağa istiqamətləndirir: "...Elm və təhsil sahəsinə xüsusi diqqət göstərilməli, bu sahə ön plana çıxarılmalıdır. Son illər elmin inkişafı və gənclərin təhsili ilə bağlı qəbul edilmiş proqramlar bu məqsədi güdür... Elm-bilik, istedad və inkişaf deməkdir. Azərbaycanda çox güclü gənc elmi elita inkişaf etdirilməlidir ki, bu elita ölkəni 20, 30, 50 il sonra uğurla idarə edə bilsin. Buna görə də, informasiya-kommunikasiya texnologiyaları, elm və təhsil sahələrinin inkişafı növbəti illərdə prioritet olmalıdır "

Elm və təhsil cəmiyyətin ehtiyac duyduğu sahələrdə istedadlı insanların axtarışına, təliminə və hazırlığına yönəldilməli, onlara milli sərvət kimi yanaşılmalıdır. Başqa sözlə, elmdə həyata keçirilən islahatların əsas prioriteti savadlı, istedadlı gənclər siyasəti olmalıdır. Bu müddətdə Azərbaycan elmi gəncliyinin bütün dünyanın, hər şeydən əvvəl Avropa İttifaqının kreativ düşüncəli elmi gəncliyi ilə əməkdaşlığına xüsusi diqqət ayrılmalıdır. Tərəqqi və texnologiyanın zaman və məkanı daha da genişləndirdiyi, insanların bir-birinə daha yaxın olduğu bu dövrdə, hər bir ölkənin gənc alimlər birliyi istər-istəməz qlobal elmi cəmiyyətə qoşulmağa yönəlir. Bu gün elmin inkişafı və gələcəyi ilə bağlı əsas məsələlər artıq milli deyil, beynəlxalq səviyyədə həll olunur. Bütün dünyanı riqqətə gətirən ixtiralar və elmi uğurlar dövrü gəlib çatıb. Millətlərin və xalqların qarşılaşdığı qlobal çağırışlara cavab olaraq, elm sahəsində beynəlxalq əməkdaşlıq artıq qaçılmaz bir zərurət halını alıb.

Elm və təhsilin tarixi göstərir ki, humanitar sahələrin inkişafı üçün yaxşı maliyyə dəstəyi çox vacibdir. Məsələn, Qərbdə alimin maddi təminatı birbaşa onun əldə etdiyi nəticələrə bağlıdır: nəticələr müsbət olduqda, dəstək də yaxşı olur, səmərəlilik aşağı olduqda isə dəstək də azalır. Bununla yanaşı, elmin inkişafı üçün onun bəşər həyatı, iqtisadiyyat və beynəlxalq əlaqələrə verdiyi töhfənin təbliği böyük əhəmiyyət kəsb edir. Elmi inkişafın vacibliyini vurğulayan ideologiya, digər sahələrdən fərqli olaraq, elm və texnologiya sahəsində mənsəbi önəmli edir. Tələbələrin və gənclərin elmi fəaliyyətə marağı daim artırılmalıdır. Bu məsələdə əsas rolu dövlət həyata keçirməlidir. Dövlət elmə ən mühüm məhsuldar qüvvə kimi xüsusi diqqət yetirməli və onun bəşəriyyətin həyatında nüfuzlu yer tutmasını təmin etməlidir. Dövlət ideologiyası ictimai şüurda elmin nüfuzunu tədricən artırmalıdır.

Təsis olunduğu ilk gündən Azərbaycan Elmlər Akademiyasının üzərinə çox mühüm səlahiyyət - cəmiyyətin təhsil və mədəni səviyyəsini dəstəkləmək və yüksəltmək funksiyası düşür və bu də akademiya üçün prioritet olaraq qalır. Başqa sözlə, Elmlər Akademiyasının funksiyası yalnız dövlətin texniki təchizatını və maddi dəstəyini gözləməkdən ibarət olmayıb, onun vəzifəsi daha çox cəmiyyət və ölkə üçün yüksək intellektual potensialın formalaşdırılması və zənginləşdirilməsidir. Ən mühüm və ümidverici fakt budur ki, Elmlər Akademiyasının fəaliyyəti bütün bu illər ərzində fundamental elmin əvəzolunmaz rolunu inandırıcı şəkildə nümayiş etdirərək, bu sahədəki mövqeyini möhkəmlətmişdir. Bu elm mərkəzindən yayılan mənəvi və intellektual enerjinin təsiri artıq 80 ildən çoxdur ki, Azərbaycanın elm və mədəniyyətinin inkişafını stimullaşdırır. Məhz AMEA-nın fəaliyyəti nəticəsində Azərbaycanda çağdaş intellektual elita yaradılıb, milli dövlətçilik ideologiyasının və azərbaycançılıq amalının elmi əsasları formalaşdırılıb. Buna görə də, Akademiyanın milli elmi təfəkkür mərkəzi kimi təsis edilməsi, həqiqətən də, müstəsna əhəmiyyət kəsb edən qlobal miqyasda dəyərli bir hadisədir.

Onu da vurğulayım ki, həyatımın və yaradıcı fəaliyyətimin hər bir mərhələsində mən həmişə optimist olmuşam və inanmışam ki, elmi inkişafın dialektikası, fəal ideya mübadiləsi Azərbaycanın inkişaf etməkdə olan iqtisadiyyatına fundamental biliklər və innovasiyalar əsasında daha sürətli tərəqqi bəxş edəcək.

**- Azərbaycan Milli Elmlər Akademiyası bu gün yeniləşmə və islahatlar dövrünü yaşayır. Buna münasibətinizi bilmək istərdik.**

- Xüsusi vurğulamaq istəyirəm ki, bu gün Azərbaycan Milli Elmlər Akademiyasında AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə yeniləşmə və islahatlar mərhələsi davamlı olaraq uğurla inkişaf etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin çağırışlarına və müasir dövrün reallıqlarına uyğun olaraq Akademiyada mühüm əhəmiyyət kəsb edən elmi araşdırmalar aparılır, sanballı monoqrafik tədqiqatlar çap olunur. Qısa müddətdə AMEA-da elektron sənəd dövriyyəsi işinin başa çatdırılması, elektron elmin sistemləşdirilməsi, süni intellektdən istifadə imkanlarına geniş meydan verilməsi, elmi nəşrlərin identifikasiyası sahəsində görülən işlər, elmi-tədqiqat müəssisələri və Rəyasət Heyəti aparatı strukturlarının təkmilləşdirilməsi, müstəqillik dövrünün çağırışlarına uyğun olaraq bir sıra yeni şöbələrin yaradılması, gənc alimlərə göstərilən diqqət və qayğını vurğulamaq da yerinə düşür. Son vaxtlarda dünyanın bir sıra nüfuzlu elmi qurumlarına səsvermə hüququna malik üzvlüyə seçilməsini isə AMEA-nın beynəlxalq elmi əlaqələrinin mühüm göstəricisi kimi xarakterizə edirəm. İnanıram ki, Akademiyada aparılan genişmiqyaslı elmi-tədqiqat işləri, əldə edilmiş mühüm nəticələr ölkəmizdə humanitar və ictimai elmlərin inkişafına daha da təkan verəcəkdir.

**- Azərbaycan elminin beynəlxalq arenada tutduğu mövqeyi necə dəyərləndirirsiniz?**

- 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Elmlər Akademiyasının alimləri yeni MDB dövlətləri ilə olan elmi əlaqələri bərpa etməklə yanaşı, Qərb həmkarları ilə əlaqələrə də xüsusi diqqət yetirirdilər. Bu, Akademiyanın əsas məqsədinə - dünya elmi ictimaiyyətinə inteqrasiyaya cavab verirdi. Alimlərin və elmi təşkilatların fəaliyyəti getdikcə daha çox ümumdünya təcrübəsinə əsasən, vahid beynəlxalq meyarlar çərçivəsində qiymətləndirilməyə başlandı. Alim və mütəxəssislərin beynəlxalq mübadiləsi kəskin şəkildə artdı. 1994-cü ildə məhz Ulun Öndər Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində "Əsrin müqaviləsi"nin imzalanması dünyanın ən iri neft korporasiyaları ilə birgə işlər aparmağa imkan verdi.

Akademiya alimlərinin bu kompaniyaların elmi mərkəzlərinə səfəri beynəlxalq əməkdaşlığın inkişaf templərini köklü surətdə dəyişdi. "British Petroleum", "Exxon", "Shell", "Amoco", "Mobil", "Unocal", Texaco", "Conoco", "Statoil", "Total", "Elf", "Agip" və b. kimi dünyanın ən iri neft kompaniyaları ilə uzunmüddətli birgə əməkdaşlığı cəsarətlə beynəlxalq elmi mühitə sıçrayış adlandırmaq olar. Bu illərdə neft geologiyası, geokimya, bio- və nanotexnologiyalar, qlobal informasiya şəbəkələri, enerjiqoruyan texnologiyalar, nüvə energetikası və başqa sahələr əsas elmi istiqamətləri təşkil edirdi. İntellektual yüksəlişin kəsilməz prosesinə tədrici keçid başlanırdı. Təhsil və elm get-gedə daha çox funksional hazırlıq konsepsiyasından şəxsiyyətin inkişafı konsepsiyasına transformasiya olunurdu.

Bu dövr ərzində akademiyanın alimlər kollektivi Qərb ölkələrində elmi araşdırmalar zamanı tətbiq olunan yeni tədqiqat metodlarına, kompüter proqramlarına və standartlarına operativ surətdə uyğunlaşmağa imkan verən əhəmiyyətli sayda elmi layihələr həyata keçirmişdilər. Bu isə gənc milli elmi kadrlar hazırlığını fəallaşdırmağa imkan yaratdı.

Bununla yanaşı, kadrların yenidən hazırlığı və onların qabaqcıl texnologiyalara yiyələnməsi məsələlərini həll etmək vacib idi. Bu məqsədlə Akademiyanın perspektivli gənc kadrları ixtisasartırma ABŞ və Avropa universitetlərinə uzunmüddətli ezam olunurdu. Neft kompaniyalarının elmi mərkəzlərindəki xarici həmkarlarla əlaqələr güclənd ikcə Elmlər Akademiyası xarici ölkələrin universitetləri ilə əməkdaşlığı daha da fəallaşdırırdı. Bu, Azərbaycan alimlərinin beynəlxalq səviyyədə tanınmasının və dünya elmi ictimaiyyətində onların statusunun mühüm dərəcədə yüksəlməsinin başlanğıcı idi. O zaman Elmlər Akademiyası icra edilmiş layihələrin (qrantların) sayına görə Azərbaycanın elmi müəssisələri arasında yüksək mövqe tutaraq, "SOROS", "İNTAS", "NATO", "COPERNICUS", "SRDF", Amerika Milli Elm Fondu, Ukrayna Elm Fondu və s. məşhur elm fondları ilə fəal şəkildə əməkdaşlıq edirdi. MDB ölkələrinin və Sakit okean regionunun alimləri ilə elmi əməkdaşlıq bərpa edilir və əlaqələr yaradılırdı. Bütün bunlar Azərbaycan Elmlər Akademiyasının fəaliyyətinin yeni mərhələsi kimi qəbul edilirdi.

Ümummili Lider Heydər Əliyevin təşəbbüsü ilə fundamental elm sistemində başlanan islahatlar XXI əsrin başlanğıcından onun layiqli varisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilirdi. O, Prezidentlik fəaliyyətinin başlanğıc dövründə Azərbaycan elmi üçün strateji əhəmiyyət kəsb edən "2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli strategiya" və "Bu strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı" kimi bir sıra mühüm dövlət sənədləri imzaladı.

Bu dövlət sənədləri cari yüzilliyin ilk 20 ilində Akademiyanın sistemli inkişafının əsasına çevrildi. Alimlər qarşısında müstəqil Azərbaycanın sonrakı iqtisadi inkişafında Akademiyanın yerini və rolunu müəyyən etmək vəzifəsi qoyuldu. Söhbət ənənəvi iqtisadiyyatdan "biliklər iqtisadiyyatına" ardıcıl və dönməz keçiddən gedirdi. Bu mənada Elmlər Akademiyasının strukturunun optimallaşdırılması və fəaliyyət səmərəliliyinin yaxşılaşdırılması istiqamətində atılan ilk və çox mühüm addım, o zamankı ictimai-siyasi reallıqların nəzərə alınması ilə dövlət quruculuğunda akademiyanın strateji məqsədlərinin dəqiqləşdirilməsi oldu.

Akademiya bu gün də beynəlxalq əlaqələrini genişləndirərək, elmi əməkdaşlıq sahəsində yeni üfüqlər açır. Alimlər müxtəlif ölkələrdəki qabaqcıl elmi mərkəzlərə səfərlər edərək, beynəlxalq təcrübə mübadiləsi aparır, yeni araşdırma layihələrini birgə həyata keçirmək məqsədilə dəyərli əlaqələr qururlar. Bu tədbirlər, ölkəmizin elmi potensialının artmasına və dünya miqyasında elmi nüfuzunun güclənməsinə böyük töhfələr verir.

**- AMEA-nın 80 illik yubileyi münasibətilə həm alimlərə, həm də gənc tədqiqatçılara tövsiyələriniz.**

- Azərbaycanda akademik universitetlərin və ümumilikdə akademiyanın tərbiyəvi missiyası olduqca mürəkkəb və çoxşaxəlidir. Yeni ideyalar yaratmaq üçün gənclər elmdə öz müəllimlərindən fərqlənməli, daha müasir düşüncəli olmalıdırlar. Burada yalnız zahiri dəyişikliklərdən deyil, həm də həyati dəyərlər, maraqlar və prioritet baxımdan dərin transformasiyalardan bəhs edilir. Çünki biz sürətlə dəyişən bir dünyada yaşayırıq; dünyanın geosiyasi xəritəsi sabit olmadığından, iqtisadiyyatı gərginlik içindədir və yüksək texnologiyaların inkişaf sürəti durmadan artır.

Dünya dinamikasının yaxın keçmişdə inkişaf etmiş müasir modelləri göstərir ki, həm ayrı-ayrı sivilizasiyalar, həm də ümumilikdə bəşəriyyət üçün ən kritik dəyişən kriteriyalar insanların sayı və texnologiyanın inkişaf səviyyəsidir. Biz belə düşünürük ki, Azərbaycan intellektinin "sayla" deyil, "bacarıqla" irəliləməsi vacibdir. Gələcəyimiz insan kapitalının inkişafı ilə bağlıdır. Buna görə də təhsil və elm cəmiyyət üçün mühüm sahələrdə istedadlı insanların aşkarlanmasına və müasir təlim metodlarının tətbiqinə yönəlməlidir. Bu gün Azərbaycan milli dövlətçilik amalına əsaslanan yeni ideologiya ilə inkişaf edir. Bizim alimlər bu ideologiyanın prinsiplərini elə işləməlidirlər ki, onu milli mənəviyyatın və milli düşüncənin təbii hissəsinə çevirə bilsinlər.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi ilə bağlı fikirlərimi yekunlaşdırarkən, oxuculara xatırlatmaq istəyirəm ki, mənim əmək fəaliyyətimin demək olar ki, 70 ili Elmlər Akademiyası ilə bağlıdır. Müxtəlif dövrlərdə Azərbaycan elminin bu flaqmanının qarşısında duran vəzifələr əsaslı şəkildə fərqlənib. Prioritetlər və yanaşmalar dəyişib, bir alim nəslinin yerinə digərləri gəlib. Son 30 il ərzində Azərbaycanda yalnız cəmiyyət deyil, elm də yüksək dərəcədə inkişaf edib. Elmi elitanın yaşlanması aydın şəkildə hiss olunur, gənc kadrların elmdən axını davam edir, büdcə maliyyələşdirilməsi əvvəlki kimi kifayət qədər deyil, lazımi səviyyədə tədqiqatların aparılması üçün elmi avadanlığın yenilənməsi hələ də çox ləng gedir. Bütövlükdə elmi-tədqiqat işlərinin təşkili üçün çətinliklər yenə də mövcud olaraq qalır.

Bu gün ölkəmiz bəşər həyatında akademiyanın roluna yenidən nəzər salmaq problemi ilə üzləşib. Zənnimcə, bir müddət aparılan vacib islahatlardan sonra Azərbaycan xalqının düşünən beyni, onun milli sərvəti, müstəqil "Elm-Təhsil Mərkəz"ləri özündə bütün elm sahələrini ehtiva edəcək, Möhtəşəm Elm Mərkəzləri müqəddəs tarixi borclarını yerinə yetirərək Vətənimizə ləyaqətlə xidmət edəcəklər.

*"Mən günəşə inanıram,*
*şüalarını belə saçmasa da,*
*Mən sevgiyə inanıram,*
*onu belə hiss etməsəm də,*
*Mən Tanrıya inanıram,*
*o, sükuta dalsa da."*

**- Müsahibə üçün minnətdarlığımızı bildiririk.**

**Ruslan KƏRİMOV**

ELM

# AMEA Qazaxıstanın elmi qurumları ilə sıx əməkdaşlıq edir

## *Qazaxıstan parlamentinin deputatları ilə görüş*



**Fevralın 17-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan Qazaxıstan parlamentinin deputatları ilə görüşüb.**

Görüşdə çıxış edən akademik İsa Həbibbəyli son illərdə ölkələrimiz arasında əlaqələrin Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin yüksək dostluq, qardaşlıq münasibətləri sayəsində özünün ən yüksək dövrünü yaşadığını bildirib. Qeyd edib ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, elm sahəsində də əlaqələr yüksək səviyyədə inkişaf edib. Azərbaycan Milli Elmlər Akademiyası bu gün qardaş Qazaxıstanın akademik elmi qurumları və ali təhsil müəssisələri ilə birgə sıx əməkdaşlıq edir. AMEA rəhbəri hər iki ölkənin alimlərinin birgə iştirakı ilə elmi konfransların, simpoziumların, layihələrin həyata keçirildiyini, tədqiqatların aparıldığını, monoqrafik əsərlərin ərsəyə gətirildiyini diqqətə çatdırıb.

Azərbaycan Prezidentinin Türk dünyasını bizim ailəmiz adlandıraraq prioritet istiqamət elan etdiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da da dövlət başçısının müəyyən etdiyi bu istiqamət üzrə Türk ölkələrinin elmi qurumları ilə əməkdaşlıq əlaqələri daha da genişləndirilir.

Sonra çıxış edən Qazaxıstan parlamentinin deputatı, parlamentin Elm və sosial-mədəni inkişaf Komitəsinin üzvü Altınbek Nuhulı qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkələrimiz arasında elm sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti, iki ölkə alimləri arasındakı elmi əlaqələrin perspektivləri barədə söhbət açıb.

Daha sonra qonaqlara kitab hədiyyələri təqdim olunub, xatirə şəkilləri çəkilib.

Görüşdən sonra qonaqlar AMEA Rəyasət Heyətinin tarixi binası ilə tanış olub, 1926-cı ildə Birinci Türkoloji Qurultayın keçirildiyi AMEA-nın Böyük zalına baxılıb.

Görüşdə Qazaxıstan parlamentinin deputatı Sinkar İslam, parlamentin əməkdaşı Saltanat Ayubayeva və Qazaxıstanın Azərbaycandakı səfirliyinin əməkdaşı Arman Beksultanov da iştirak ediblər.

# Proqram sistemlərinin keyfiyyət göstəriciləri ilə bağlı tədqiqatlar aparılacaq



**Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda "Proqram sistemlərinin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi üçün intellektual metod və alqoritmlərin işlənməsi" mövzusunda elmi seminar keçirilib**

Mövzuya dair institutun dissertantı Eldəniz İsmayılov çıxış edərək qeyd edib ki, tədqiqat işinin əsas məqsədi proqram sistemlərinin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi üçün intellektual metodların tətbiqi və alqoritmlərin işlənib-hazırlanması, süni intellekt və maşın təlimi kimi qabaqcıl texnologiyalar vasitəsilə proqramların əsas keyfiyyət göstəricilərinin daha dəqiq və dinamik şəkildə qiymətləndirilməsidir.

E.İsmayılov, həmçinin tədqiqat işində qarşıya qoyulmuş məsələləri diqqətə çatdırıb. Qeyd edib ki, dissertasiya çərçivəsində proqram sistemlərinin əsas keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və təsnifatı, mövcud metodların və yanaşmaların təhlili, intellektual metod və alqoritmlərin seçilməsi, onların modifikasiyası və işlənməsi, intellektual metod və alqoritmlərin proqram sistemlərinin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi prosesinə tətbiqi, təklif olunmuş metod və alqoritmlərin sınaqdan keçirilməsi və nəticələrin təhlili kimi məsələlərə baxılacaq.

Məruzə ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

Daha sonra AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev çıxış edərək dissertasiya işinin müasir dövrdə böyük aktuallıq kəsb edən məsələyə həsr olunduğunu bildirib. Alim bu istiqamətdə tədqiqat obyektinin dəqiqləşdirilməsi və konkretləşdirilməsi, beynəlxalq təcrübənin araşdırılması və icmal xarakterli məqalənin hazırlanması ilə bağlı tövsiyələrini verib.

# MEK tərəfindən AMEA-nın elmi-tədqiqat institutlarının kitabxanaçıları üçün təlim



**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası (MEK) AMEA-nın elmi-tədqiqat institutlarında çalışan kitabxanaçıların peşə bacarıqlarını inkişaf etdirmək, qabaqcıl təcrübəni yaymaq və kitabxana-informasiya sahəsində elmi-innovativ biliklər öyrənərək tətbiq etmək məqsədilə ixtisasartırma təlimləri təşkil edib.**

Təlimin ilk günündə MEK-in direktoru texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov kitabxanaçılarla görüşərək dövlət tərəfindən bu sahəyə göstərilən yüksək qayğıdan danışıb, elmi kitabxanalarda səmərəli, məhsuldar tədqiqat mühitinin formalaşdırılmasının və qorunmasının vacibliyini vurğulayaraq iştirakçılara uğurlar arzulayıb.

İki həftə davam edəcək təlimlərdə iştirakçılar elektron kitabxana və kataloqların yaradılması, kitabların rəqəmsallaşdırılması, virtual sərgilərin hazırlanması, xarici elektron bazalarda axtarış strategiyaları, biblioqrafik xidmətlərin təşkili və kitabxana işinə dair digər mühüm biliklərə yiyələnəcəklər.

MEK-in İnnovativ layihələr və metodiki təminat şöbəsinin müdiri Səyyarə Məmmədovanın rəhbərliyi ilə təşkil olunan təlimlərin sonunda iştirakçılara MEK tərəfindən sertifikatlar təqdim ediləcək.

# Folklor İnstitutunda ictimaiyyətlə əlaqələr və elmi biliklərin populyarlaşdırılmasına həsr olunmuş müşavirə

**AMEA-nın Folklor İnstitutunda ictimaiyyətlə əlaqələr və elmi biliklərin populyarlaşdırılması, rəqəmsallaşma və elektron sənəd dövriyyəsi sistemindən istifadənin vəziyyətinə həsr olunmuş müşavirə keçirilib.**

Müşavirədə institut rəhbərliyi, şöbə müdirləri və aidiyyəti şəxslər iştirak ediblər.



Tədbirdə AMEA-nın Folklor İnstitutunun direktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Quliyev çıxış edərək son dövrlər Azərbaycan Milli Elmlər Akademiyasında aparılan çoxşaxəli islahatlar və yeniləşmə prosesi, rəqəmsallaşma və elektron hərəkat barədə danışıb. O qeyd edib ki, AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təşəbbüsü və rəhbərliyi ilə elmi fəaliyyətin bütün istiqamətlərində, xüsusilə də humanitar və ictimai elmlər sahəsində dünyanın müasir çağırışları və ölkəmizin mədəni-mənəvi inkişafına yönələn mühüm tədbirlər həyata keçirilməkdədir. Natiq AMEA-da aparılan genişmiqyaslı islahatlar şəraitində, eləcə də rəqəmsal transformasiyaların getdiyi və süni intellekt texnologiyalarının geniş şəkildə tətbiq olunduğu hazırkı dövrdə Folklor İnstitutunun da qarşısında mühüm elmi və elmi-təşkilati vəzifələrin dayandığını xüsusi vurğulayıb. Qeyd olunub ki, idarəetmədə rəqəmsal texnologiyaların tətbiqi, eləcə də müəssisədaxili və müəssisədənkənar sənədləşmə proseslərinin elektron sənəd dövriyyəsi sistemi ilə aparılması günümüzün reallığıdır. Belə bir reallıq fəaliyyətimizin müxtəlif istiqamətlərini rəqəmsal platformaya uyğunlaşdırmağı və bütün əməkdaşların elektron sənəd dövriyyəsi sisteminə inteqrasiya olunmasını tələb edir.

Müşavirədə müzakirə olunan növbəti məsələ Folklor İnstitutunda ictimaiyyətlə əlaqələr və elmi biliklərin populyarlaşdırılmasının mövcud vəziyyətinə həsr olunub. Hikmət Quliyev vurğulayıb ki, institutda aparılan fundamental elmi tədqiqatların nəticələrinin ictimaiyyətə çatdırılması, xüsusilə də akademik elmi mühit üçün xarakterik olan elmi məsələlərin populyarlaşdırılması olduqca aktual məsələdir. O qeyd edib ki, folklor xalqın kollektiv düşüncə və biliyini, adət və ənənələrini, sosial psixologiyasını metaforik-simvolik şəkildə, yəni mətnaltı mənada özündə ehtiva etdiyindən bəzən kütləvi dinləyici və tamaşaçı üçün onun mahiyyəti tam şəkildə anlaşılmır. Odur ki, xalqın mədəni-mənəvi dəyərlərinin güzgüsü olan folklorun kütləvi informasiya vasitələrində, televiziya və radioda təqdimi folklorşünasların belə məsələlərə daha dəqiq və daha həssas yanaşmalarını zəruri edir.

Müşavirədə müzakirə olunan məsələlərlə bağlı AMEA-nın Folklor İnstitutunun elmi işlər üzrə direktor müavini, dosent Afaq Ramazanova, şöbə müdirləri - professor Əfzələddin Əsgər, professor Seyfəddin Rzasoy, professor Füzuli Bayat, filologiya elmləri doktoru Mətanət Abbasova, filologiya üzrə fəlsəfə doktoru İlkin Rüstəmzadə, Əli Şamil və digər əməkdaşlar fikirlərini bölüşüblər. Qeyd ediblər ki, müasir dövrdə elmi biliklərin geniş ictimaiyyətə çatdırılması üçün çoxsaylı informasiya kanalları, ənənəvi KİV-lə yanaşı, rəqəmsal platformalar mövcuddur. Odur ki, folklorumuzu, milli adət və ənənələrimizi qorumaq, milli-mənəvi dəyərlərimizi peşəkar şəkildə təbliğ etmək olduqca vacib məsələdir.

Tədbirdə ictimaiyyətlə əlaqələr və folklora dair elmi biliklərin populyarlaşdırılması çərçivəsində AMEA Folklor İnstitutunun rəsmi veb saytının - folklor.az-ın strukturunun təkmilləşdirilməsi məsələsi də müzakirə olunub. Qeyd olunub ki, veb saytın müasir dövrün tələblərinə uyğunlaşdırılması, yeni imkan və alətlərlə təmin edilməsi, həm məzmun, həm də dizayn baxımından zənginləşdirilməsinə ehtiyac vardır. Qərara alınıb ki, folklor.az-ın strukturunun təkmilləşdirilməsi üçün təkliflər toplanılsın və həmin təkliflər əsasında saytın yeni versiyası hazırlansın.

Müşavirənin sonunda bir sıra cari məsələlər müzakirə olunub, suallar cavablandırılıb.

# Ölkəmizdə qadınların elmdə fəal iştirakını təşviq etmək üçün müxtəlif proqramlar həyata keçirilir

**BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnaməyə əsasən, hər il fevralın 11-i Qadınlar və Qızlar Elmdə Beynəlxalq Günü kimi təntənə ilə keçirilir. Bütün dünyada elm, texnologiya, innovasiyalar və gender bərabərliyi məsələlərinə aidiyyəti olan hər kəsin diqqətini çox mühüm problemə cəlb edən əlamətdar gün bu il artıq 10-cu dəfədir ki, qeyd olunur.**



Qadınlar və Qızlar Elmdə Beynəlxalq Günü elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) sahələrində gender bərabərliyini təşviq edən, qadın və qızları məhz bu istiqamətlərdə karyera qurmağa həvəsləndirən bir gündür. Bu gün BMT-də, UNESCO-da və bütün dünyada keçirilən tədbirlərlə, müxtəlif tribunalardan edilən çıxışlarla, vətəndaş cəmiyyəti nümayəndələrinin və KİV-lərin səfərbər edilməsi ilə qadın və qızların elmdə iştirakına dəstək göstərməyə, bu iştirakı məhdudlaşdıran maneələri və stereotipləri aradan qaldırmağa cəhdlər göstərilir.

UNESCO və BMT-nin xüsusi strukturu tərəfindən nəzarət edilən bayram statuslu bu günün ideyası gender bərabərliyini təbliğ etməklə yanaşı, qadınların elm sahəsində hüquq və imkanlarını genişləndirməkdir.

Qadınlar və Qızlar Elmdə Beynəlxalq Gününün 11 fevrala salınması təsadüfi deyildir, 11 fevral radioaktivlik və nüvə fizikası sahələrində elmə inqilabi töhfələr vermiş görkəmli fizik və kimyaçı, ilk qadın Nobel mükafatı laureatı Mari Kürinin doğum günüdür. Bu böyük alim 2 dəfə - 1903-cü ildə fizika, 1911-ci ildə kimya sahəsində Nobel mükafatına layiq görülmüşdür. Bu bir faktdır ki, 2 müxtəlif sahə üzrə mükafatlandırılmış yeganə alim olan Mari Küri hazırda da elmdə qadınlar üçün ilhamverici simvol olaraq qalmaqdadır.

Qadınlar və Qızlar Elmdə Beynəlxalq Gününün əsas məqsədləri bunlardır:

- Gender bərabərliyini təşviq etmək: STEM sahələrində gender bərabərliyinə nail olmağın əhəmiyyətini bütün dünyanın diqqətinə çatdırmaq, qadın və qızların elmi təhsil və karyera məsələlərində bərabər fürsətlər əldə etməsini təşviq etmək.
- Nailiyyətləri vurğulamaq: Qadın alimlərin elmi tədqiqatlar, texnologiya və innovasiyalar sahəsindəki uğurlarını qeyd edərək, onların müvafiq töhfələrini nümayiş etdirmək.
- Gələcək nəsillərə ilham vermək: Gənc qızları və tələbələri STEM sahələrində təhsil və karyera qurmağa həvəsləndirmək, onlara stereotiplərə və qərəzli yanaşmalara qarşı mübarizə ruhu aşılamaq.
- İnklüzivliyi təbliğ etmək: Elmi cəmiyyətdə qadınların qərarvermə proseslərində və liderlik rollarında daha çox iştirakının təşviqinə nail olmaq.

Qadınlar və Qızlar Elmdə Beynəlxalq Günü müxtəlif üsullarla qeyd olunur:

- Konfrans və seminarlar keçirməklə: Hökumətlər, tədqiqat mərkəzləri və təhsil müəssisələri tez-tez STEM sahələrində qadınların iştirakına həsr olunmuş konfranslar, seminarlar və təlimlər təşkil edirlər. Bu tədbirlər müzakirələr və bilik mübadiləsi üçün platforma yaradır.
- Rol modellərinin tanıdılması ilə: STEM sahələrində uğur qazanmış qadınlar və qızlar tanıdılır, onların nailiyyətləri qeyd və təbliğ olunur, bu da gələcəkdə elm yoluna qədəm qoyacaq xanımlar üçün nümunə rolunu oynayır.
- STEM üzrə təşviq proqramları vasitəsilə: Bir çox qurumlar gənc qızları STEM mövzuları ilə tanış etmək, praktiki təcrübələrdə iştirakını təmin etmək və tanınmış qadın alimlərlə ünsiyyət yaratmaq məqsədilə təşviq proqramları həyata keçirir.
- Sosial media kampaniyaları aparmaqla: Bütün sosial şəbəkələrdə elm sahəsində fəaliyyət göstərən qadınların uğur hekayələri, profilləri və nailiyyətləri geniş və ardıcıl şəkildə paylaşılır.

Qadınların və qızların elmdə rolunun artırılması istiqamətində BMT-nin əhəmiyyətli beynəlxalq layihələrinə ciddi dəstək göstərən bir qurum - ”Kral Elmlər Akademiyası Beynəlxalq Etimad Fondu” (RASIT) haqqında qısa bir məlumat vermək istərdim. Mənzil-qərargahı ABŞ-da yerləşən RASIT təhsil, yoxsulluq, səhiyyə, ətraf mühit və davamlı inkişafın digər bu kimi problemlərini həll etmək üçün hökumətlər, vətəndaş cəmiyyəti, özəl sektor, BMT qurumları, üzv ölkələr, beynəlxalq və regional hökumətlərarası təsisatlarla işləyən qeyri-hökumət təşkilatıdır. RASIT 2030-cu ilə qədər və sonrakı dövr üçün davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə elm, texnologiya və innovasiya sahələrində bərabərliyə, o cümlədən gender bərabərliyinə nail olmaq üçün səylər göstərir.

BMT-nin məlum 2015-ci il qətnaməsinin qəbulundan sonra RASIT tərəfindən dünya üzrə qadın və qızların elm, texnologiya, mühəndislik və riyaziyyat sahələrinə cəlb edilməsinə, müvafiq imkanların yaradılmasına iri-həcmli vəsait yönəldilmişdir. 10 il ərzində dünya üzrə 238 görkəmli alim qadın məruzəçi kimi cəlb edilmiş, 395 alim və mütəxəssisə felloşip təqaüdü verilmiş, elmə maraq göstərən 3279 gənc qızın tədqiqatları dəstəklənmiş, dünya üzrə 155 mindən çox tədbir keçirilmişdir.

Azərbaycanın qadın və qızların maarifləndirilməsi istiqamətindəki səylərini, eləcə də qadın və qızların elm və təhsil sahəsində aparıcı mövqe tutduğunu nəzərə alaraq, ölkəmiz RASIT tərəfindən 1 il müddətinə (sentyabr 2024 - sentyabr 2025) ”Elmdə Qadın və Qızların Dünya Paytaxtı” elan edilmişdir. Bununla bağlı, ölkəmizdə qadın və qızlarda, xüsusilə regionlarda təhsil alanlarda elmi fəaliyyətə maraq aşılanması, elm sahəsində çalışan qadın və qızların müvafiq bilik və bacarıqlarının artırılması üzrə layihələr icra edilir, universitet tələbələri müvafiq qrant və təqaüdlər barədə mütəmadi məlumatlandırılır və qeyd edilən istiqamətlərdə müxtəlif tədbirlər həyata keçirilir.

Yuxarıda qeyd etdiyim kimi, BMT, UNESCO və digər, o cümlədən RASIT kimi qurumlar qadın və qızların elm, texnologiya, mühəndislik və riyaziyyat sahələrində yüksək təhsil almalarına və elmi fəaliyyətlə məşğul olmalarına xüsusi diqqət yetirirlər.

Elmdə ən son yeniliklərə, 4-cü sənaye inqilabının qarşıya qoyduğu çağırışlara, BMT-nin Davamlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində qadın və qızların aparıcı rolunu nəzərə alaraq, 10-cu Qadınlar və Qızlar Elmdə Beynəlxalq Gününün əsas mövzusu aşağıdakı kimi müəyyən edilmişdir: ”STEM sahəsində karyera imkanlarının üzə çıxarılması: Elmdə Qadının Səsi”.

Bu əlamətdar gün münasibətilə Nyu-Yorkda, BMT-nin Baş Qərargahında ”10-cu Qadınlar və Qızlar Elmdə Beynəlxalq Günü” münasibətilə tədbirlər keçirilir. Həmin tədbirlərdə yuxarıda qeyd edilmiş qlobal məqsədlərin həyata keçirilməsi istiqamətindəki fəaliyyətlərdə qadın və qızların misilsiz töhfələrindən danışılır, elm, texnologiya və yaşıl iqtisadi artım arasında qarşılıqlı əlaqə və asılılığa diqqət çəkilir, davamlı, ədalətli və inklüziv sosial-iqtisadi inkişafa nail olmaq üçün gender istiqamətli və insan hüquqlarına əsaslanan yanaşmalardan istifadə edilməsi vurğulanır.

Bütün bəşəriyyət, xüsusən gələcək nəsillər üçün daha yaxşı, daha firavan, təhlükəsiz həyat naminə, resursların ədalətli bölünməsi, hamı üçün əlçatanlığı naminə mücadilə edən qadın alim, texnoloq, mühəndis, təbib və digər sahə mütəxəssislərini, sadə elmi işçidən tutmuş yüksək vəzifəlilərə qədər ən müxtəlif mövqelərdə həlledici rol oynayan tədqiqatçı qadınlarımızı misal göstərə bilərik. Getdikcə daha çox qadın STEM sahələrində, xüsusən də yüksək rəqəmsal texnologiyalar və süni intellektlə bağlı tədqiqat və innovasiya istiqamətlərində fəaliyyət göstərir. Azərbaycanda dövlət tərəfindən aparılan məqsədyönlü elm və gender siyasəti sayəsində bu proses daha təsirli və daha sürətlə gedir.

UNESCO-nun STEM sahələrində qadınların iştirakı ilə bağlı son hesabatına görə, bu gün peşəkar elmi fəaliyyətlə məşğul olan qadınların qlobal orta payı alimlərin ümumi sayının üçdə birini təşkil edir. 4-cü sənaye inqilabını şərtləndirən əksər texniki sahələrdə ixtisaslı kadr çatışmazlığına baxmayaraq, qadınlar hələ də mühəndislik məzunlarının yalnız 28%-ni və kompüter elmləri üzrə təhsil alanların 40%-ni təşkil edirlər. Dünyanın tanınmış universitetlərində bütün qız tələbələrin ən çoxu onda biri STEM fənləri üzrə təhsil alır. Süni intellekt kimi qabaqcıl sahələrdə mütəxəssislərin yalnız 22%-ə qədəri qadındır. Bu vəziyyət bəşəriyyətin ziyalı təbəqəsini ciddi narahat edir. UNESCO-nun hesabatında Qadınlar və Qızlar Elmdə Beynəlxalq Gününə həsr olunmuş bölməsi ”Ağıllı olmaq üçün rəqəmsal inqilab inklüziv olmalıdır” adlanır.

Dünya üzrə qadınlar filologiya, psixologiya, fəlsəfə, sosiologiya və s. kimi sosial və humanitar elmlərə daha çox maraq göstərirlər: burada onların orta payı təxminən 42% təşkil edir.

Qadınlara adətən kişi həmkarlarından daha kiçik tədqiqat qrantları verilir və ən müxtəlif səbəblərdən qadın alimlərin inkişaf imkanları da xeyli zəifdir. Qadın tədqiqatçılar daha qısa və daha az maaşlı karyeralara sahib olurlar. Onların elmi əsərləri yüksək profilli, impakt faktorlu jurnallarda az dərc olunur.

Statistikaya görə, bu gün dünyada bütün qadın və qızların yalnız 23%-ə yaxını (kişilər üçün 62%-ə qarşı) orta ixtisas və ali təhsil alır. Qadınların təhsilinə əsas maneələr yoxsulluq, ənənəvi sosial problemlər və yetkinlik yaşına çatmamış bağlanan erkən nikahlardır.

BMT-nin və UNESCO-nun müvafiq hesabatlarında Avropa İttifaqı, Şimali Amerika ölkələri, Rusiya, Yaponiya, Cənubi Koreya, Avstraliya, Yeni Zelandiya tam hüquqlu təhsil almaq üçün bərabər gender imkanlarının yaradılmasında ən uğurlu ölkələr kimi göstərilir.

Şərqdə və ümumən müsəlman dünyasında ilk demokratik respublikanın qurulması, gender bərabərliyi ilə bağlı konstitusiya hüquqlarının təsbit olunması, qadınlara ilk dəfə seçmək və seçilmək hüququnun verilməsi ilə fərqlənən Azərbaycan qadın və qızların elmdə, o cümədən STEM sahələrində iştirakı üzrə bir çox göstəricilərə görə dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə edilə bilər.

Ulu Öndərin müasirliyi və eyni zamanda milli-mənəvi dəyərlərə söykənməsi ilə fərqlənən gender siyasətinin mühüm tərkib hissəsi də qadın və qızların yüksək təhsilə və elmi fəaliyyətə fəal şəkildə cəlb olunmasının təşviq və təmin edilməsi olmuşdur. Ölkə Prezidentinin yenilikçi və tərəqqipərvər siyasi kursunun əsasında da məhz bu məsələlərin durduğu məlumdur.

Azərbaycanda elmi işçilərin cinsiyyət baxımından payı ilə bağlı statistik məlumatlar dövlət qurumları və ya elmi təşkilatlar tərəfindən müntəzəm olaraq açıqlanır. Məhz düzgün qurulmuş siyasətin ardıcıl həyata keçirilməsi sayəsində respublikamızda elmi işçilərin təxminən 55-60%-i qadınlardan ibarətdir. Bu göstərici elm və təhsil sahəsində qadınların fəal iştirakını və dövlətimizin gender bərabərliyinə verdiyi əhəmiyyəti əks etdirir. Xüsusilə, təbiət elmləri, tibb, mühəndislik və humanitar elmlər sahələrində qadınların iştirakı daha yüksəkdir. Azərbaycan hökuməti və elmi qurumlar qadınların elmdə daha fəal iştirakını təşviq etmək üçün müxtəlif proqramlar və təşəbbüslər həyata keçirir. Ölkəmizdə elm və texnologiyalar üzrə təhsil alanların 40%-i qızlardır, halbuki dünya üzrə bu rəqəm 35%-dən yuxarı deyildir. Dəfələrlə qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının 3 vitse-prezidenti, 3 universitet rektoru, AMEA-nın və AR ETN-nin onlarla elmi müəssisə rəhbəri, tədqiqat institutlarında struktur vahidləri rəhbərlərinin əhəmiyyətli bir hissəsi qadınlardır. STEM sahələrinə maraq göstərən qadınların, xüsusən universitetlərin müvafiq fakültələrində təhsil alan tələbə qızların sayı da ilbəil artır.

Bu gün Azərbaycanın qadın və qızları Ölkə Başçısının siyasi kursunu tam dəstəkləyərək ətrafında sıx birləşməklə müstəqil, demokratik, suveren dövlətimizin elmi, sosial-iqtisadi, hərbi qüdrətinin gücləndirilməsi istiqamətində kişilərlə çiyin-çiyinə çalışır, elm və təhsildə yeni dövrün hədəflərinə doğru əmin addımlarla irəliləyirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və AMEA-nın Qadınlar Şurasının birgə təşkilatçılığı ilə keçirdiyimiz konfrans və seminarlar elmi cəmiyyətdə müxtəlifliyin və inklüzivliyin əhəmiyyətini bir daha diqqətə çatdırmağa xidmət edir. Tədbirlərdə dinlənilən məruzələr, aparılan müzakirələr, mətbuatda, saytlarda dərc edilən yazılar maneələri aradan qaldıraraq gələcək nəsillər üçün yol açan qadın və qızlarımızın bərabər fürsətlərə layiq olduqlarını, STEM sahələrinə əvəzolunmaz töhfələr verdiklərini təkrar-təkrar nümayiş etdirir.

Biz bu cür toplantıları təşkil etməklə elmdə gender bərabərliyinə sadiqliyimizi təsdiqləyirik, eyni zamanda, öz fikirlərimizi gənc nəsillərə çatdırmaq, onları STEM-in sonsuz imkanlarını kəşf etməyə həvəsləndirmək üçün şərait yaradırıq.

Gəlin, elm və innovasiya uğrunda mübarizədə qadınların və qızların səslərinin eşidilməsinə, bacarıq və istedadlarının lazımi şəkildə qiymətləndirilməsinə nail olmağa çalışaq, daha geniş karyera imkanlarının yaradılmasında onları dəstəkləməyə və inkişaflarını gücləndirmək üçün səylər göstərməyə davam edək.

**İradə HÜSEYNOVA**
**AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik**

# Cəmiyyətdə və elmdə qadınların rolu müzakirə edilib

**AMEA-nın Şərqşünaslıq İnstitutunda ”Müasir cəmiyyətdə və elmdə qadının rolu” mövzusunda elmi konfrans keçirilib.**

Konfransı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü Azərbaycan qadınının cəmiyyətdə bütün sahələrdə uğurlar qazandıqlarını, elmdə də qadın alimlərimizin böyük nailiyyətlər əldə etdiklərini bildirib.

Konfrans iştirakçılarını, o cümlədən tədbirə qatılan AMEA-nın Qadınlar Şurasının və AMEA institutlarının Qadınlar təşkilatlarının rəhbər nümayəndələrini salamlayan Şərqşünaslıq İnstitutunun Qadınlar təşkilatının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanımzər Kərimova fevralın 11-i ”Qadınlar və qızlar elmdə” Beynəlxalq Gününün qeyd olunmasının bu il ən çox STEM sahəsinə yönəldiyinə görə hazırkı konfransın da ”Müasir cəmiyyətdə və elmdə qadınların rolu” adlandırıldığını bildirib. Bu günün qeyd olunmasının qadın və qızların elmi və texnoloji sahələrin inkişafında rolunun vacibliyini xatırlatdığını deyən X.Kərimova hal hazırda STEM-in dünya elminin və təhsilinin əsas istiqamətlərindən biri olduğunu qeyd edib.



Daha sonra institutun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Sevinc Nuriyeva ”Azərbaycan qadınları müasir cəmiyyətimizin aparıcı qüvvələri kimi” mövzusunda məruzə edib. Bu gün Azərbaycan qadınlarının elm və təhsildə yeni hədəflərə doğru irəlilədiyini söyləyən S.Nuriyeva bildirib ki, bu hədəflər sırasında işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış, ətraf mühitin, ekologiyanın sağlamlaşdırılması, sağlam və təhlükəsiz yaşamaq üçün imkanların genişləndirilməsi, dünya elminə daha geniş inteqrasiya, beynəlxalq elmmetriya reytinqlərində ölkələrin göstəricilərinin yüksəldilməsi və digər məsələlər xüsusi yer tutur.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru Lalə Mikayılzadə ”Qadınların texnologiya və innovasiya sahəsinə töhfələri” mövzusunda məruz edib. Məruzəçi qadınların və qızların cəmiyyətdə, elm və texnologiyadakı rolunun vacibliyindən bəhs edərək, dövlətimiz tərəfindən bu istiqamətdə aparılan işlər haqqında ətraflı danışıb.

İnstitutun elmi işçisi Solmaz Namazova ”Azərbaycan qadınlarının tibb elminə töhfələri: tarix və müasirlik”, dissertant Könül Şimiyeva ”Müasir Azərbaycan qadınının təhsildə rolu” mövzusunda məruzəsində təhsil sahəsində böyük nailiyyətləri olan Azərbaycan qadınlarından bəhs edib.

İnstitutun böyük elmi işçısı, tarix üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova özünün yazdığı ”Azərbaycan qadını” adlı şeiri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin sonunda çıxış edən AMEA-nın Qadınlar Şurasının sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Mahrux Nəcəfli konfransın işini, eləcə də Şərqşünaslıq İnstitutunun qadın alimlərinin, Qadınlar Şurasının fəaliyyətini yüksək qiymətləndirib.

# Kayum Nasirinin 200 illiyi qeyd olunub

**AMEA-nın A.A Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda Kayum Nasirinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki seminar keçirilib.**

Seminarda institutun əməkdaşları ilə yanaşı, Kayum Nasiri İnstitutunun Bakı Mərkəzinin rəhbəri və əməkdaşları iştirak ediblər.

İclası AMEA-nın Tarix və Etnologiya İnstitutunun Elmi işlər üzrə direktor müavini tarix elmləri doktoru, dosent İlqar Niftəliyev açaraq iştirakçıları salamlayıb.

Tədbirin moderatoru Güllü Yoloğlu bildirib ki, 1825-ci il fevralın 14-də görkəmli tatar etnoqrafı, folklorşünası, tarixçisi, dilçisi, yazıçısı, tərcüməçisi, maarifçisi Kayum Nasiri anadan olub.

Sonra Kayum Nasirinin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirin təşkilinə görə filologiya elmlər doktoru, professor Kazan Federal Universitetinin Filologiya və Mədəniyyətlərarası əlaqələr İnstitutunun direktoru, "Ümumi dilçilik və türkologiya" kafedrasının müdiri, Rusiya Təhsil Akademiyasının müxbir üzvü, Tatarıstan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Federasiyasının Rusiya Müəlliflər Cəmiyyətinin Doğma dillər və mədəniyyətlər Mərkəzinin rəhbəri Rədif Camaləddinov təşkilatçılara təşəkkürlərini çatdırıb.



Kayum Nasiri İnstitutunun Bakı Mərkəzinin rəhbəri və metodisti Elmira Yusifova "Kayum Nasirinin elmi yaradıcılığında tatar xalqının etnoqrafiyası", Tarix və Etnologiya İnstitutunun Tarixi etnologiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru İsmayıl Umudlu "Azərbaycanın mədəni həyatında tatar ziyalılarının rolu", tarix üzrə fəlsəfə doktoru,dosent Aypara Rüstəmova "Azərbaycan-tatar əlaqələri və Azərbaycan tatarlarının Qarabağ müharibəsində iştirakı" adlı məruzələrlə çıxış ediblər.

# Gənc arxeoloqun məruzəsi maraqla qarşılanıb



**Özbəkistanın paytaxtı Daşkənd şəhərində Beynəlxalq Türk Dünyası Gənc Akademiklər Birliyinin II Konqresi keçirilib.**

Türkiyə Prezidentinin Rabitə Müdirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Xaricdəki Türklər və Qohum Toplumlar Nazirliyi, Yunus Əmrə İnstitutu və Maarif Fondunun dəstəyi ilə keçirilmiş konqresdə 21 ölkədən 260-a qədər gənc tədqiqatçı alim iştirak edib.

Daşkənd Dövlət Hüquq Universitetinin ev sahibliyi etdiyi "Ortaq gələcəyin inşası" mövzulu tədbirdə açılış nitqi ilə Gənc Akademiklər Birliyinin sədri Yunus Kocabıyık çıxış edib. Y.Kocabıyık akademiklər arasında əməkdaşlığı artırmaq məqsədi daşıyan bu Konqresin keçmişdə dünyanın mühüm elm mərkəzlərindən biri olan Özbəkistanda keçirilməsindən məmnun olduqlarını bildirib.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun "Arxeoloji irsin tarixi və nəzəriyyəsi" şöbəsinin elmi işçisi, doktorant Günay Bayramova da bu konqresdə iştirak edib. G.Bayramovanın "Metal objects of Muncuglutepe necropolis (Azerbaijan)" (Muncuqlutəpə (Azərbaycan) nekropolisinin metal əşyaları) mövzusunda çıxışı maraqla dinlənilib. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Sabirkənd və Kələntər Dizə kəndləri yaxınlığında aşkar edilmiş Son Tunc və Erkən dəmir dövrünə aid Muncuqlutəpə nekropolu regionun həmdövr abidələri arasında dini baxışları əks etdirən qəbir abidələrinin fərqli quruluşu və tapıntıların orijinallığı ilə seçilməkdədir.




# "Qarabağın turizm-rekreasiya potensialı"

**Elm və Təhsil Nazirliyinin akademik H.Əliyev adına Coğrafiya İnstitutunun "Qarabağın turizm-rekreasiya potensialı" adlı yeni nəşri Azərbaycan və rus dilində dərc edilib.**

Monoqrafiyanın müəllifləri institutun icraçı direktoru dosent Zaur İmrani və aparıcı elmi işçisi, c.ü.f.d. Kəmalə Zeynalovadır.

